XƏZƏR UNİVERSİTETİ

Fakültə: Humanitar və sosial elmlər

Departament: Jurnalisika

İxtisas: Beynəlxalq jurnalistika

MAGİSTR TEZİSİ

Mövzu: AZƏRBAYCAN ELEKTRON KİV-də UŞAQ VERİLİŞLƏRİ, UŞAQLARIN FORMALAŞMASINDA MÜASİR MEDİANIN ROLU

Magistrant Elnarə Nağıyeva

Elmi rəhbər Cabir Məmmədli

BAKI-2011

# Referat

Sivilizasiyanın tarixi həyatımızda əsaslı dəyişikliklər etməsə də, onu çox güclü korrektə etmiş bir neçə əlamətdar hadisələrlə zəngindir. Bu cür hadisələrdən odun meydana gəlməsini, təkər, telefon və televiziyanın ixtira olunmasını hesab etmək olar. Televiziya insanların informasiya və onun ötürülməsi yolları haqqında fikirlərini dəyişdi. Televiziya mədəniyyəti dəyişdi, onun inkişafını yeni istiqamətə yönəltdi.

Televiziyaya mədəniyyət fenomeni kimi ilk dəfə M.Maklüen özünün "Quttenberqin qalaktikası" (1962) kitabında baxmışdır. O sübut edirdi ki, kitab oxunuşuna əsaslandırılmış, kitab çapı mədəniyyətinin əvəzinə müasir elektron sivilizasiyası olan "Markioni Qalaktikası" gəlir, hansı ki, informasiyanın ötürülməsi və şüurun manipulyasiya edilməsinin əsas vasitəsi televiziya oldu. Onun televiziyaya baxışı, əslində, inqilabilik və son dərəcə uzaqgörənlik oldu.

Onun yaşı 50-dən bir az artıqdır. Ancaq bu müddət ərzində o, cəmiyyətimizə elə daxil olmuşdur ki, onsuz keçinmək, hətta həyatımızı onsuz təsəvvür etmək belə qeyri-mümkündür. Kəşf edildiyi gündən etibarən, ailəmizin üzvünə çevrilmiş, digərlərindən daha çox diqqətə layiq görülmüş, sevilmiş və ən nəhayət, hamını –heç kəs istisna olmadan, düşüncəsindən tutmuş yaşam tərzinə qədər "mənimsəmişdir". Bu mənimsəmə prosesindən heç kəs yan gəzə bilməmiş, böyüklü-kiçikli hamı onun təsiri altına düşmüşdür.

Qetd etdik ki, onun nüfuz dairəsinə hamı daxildir, ancaq onun təsiri özünü azyaşlılarda daha qabarıq göstərməkdədir, ən azından ona görə ki, ətraf mühitin təsirindən daha çox əziyyət çəkən elə məhz uşaqlardır. Bu məsələ ilə bağlı tədqiqatçılar son zamanlar bir sıra əhəmiyyətli araşdırmalar aparmış, televiziyanın uşaqlara göstərdiyi təsirə müxtəlif aspektlərdən yanaşaraq, məsələyə aydınlıq gətirməyə çalışmışlar. Belə ki, bu araşdırmalar bir sıra əhəmiyyətli sualları diqqət mərkəzinə çəkmişdir:

- ✓ TV-nin kobudluq aşılayan proqramlarını izləyən azyaşlıya bu verilişlər necə təsir edir?
- ✓ Onlar ictimailəşmə prosesinə nə dərəcədə məruz qalırlar?
- ✓ TV-ni olduğu kimi mənimsəmək onların düşüncə mexanizmini təsir altına alaraq ətrafda baş vermiş hadsələrlə bağlı hansı (kor-koranə, yaxud azad düşüncə) münasibətə səbəb olur?
- ✓ Fəaliyyət saatına aid zamanı televiziya ekranı önündə keçirmək formalaşmaqda olan kiçik varlığın orqanizminə, dil qabiliyyətinə, fantaziyasına, yaradıcılığına, dərslərindəki uğuruna və ya geriliyinə, zehni inkişafına, onun ictimai əlaqələri möhkəmləndirməsinə və ən nəhayət, demokratik bir rejimdə fəal vətəndaş olaraq hazırlanmasına necə və nə dərəcədə təsir edir?

Qeyd olunan bu suallar təbii ki, çox ciddi və eyni zamanda məsələnin daşıdığı əhəmiyyətə görə uzunmüddətli araşdırmaya ehtiyacı olan bir mövzudur. Bu tip mövzular arasında uşaqlar üçün nəzərdə tutulmuş proqramlar və onların uşaqlara təsiri də mühüm yer tutur.

*Araşdırmanın yeniliyi* – baxmayaraq ki, televiziya mədəni və sosial fenomen kimi bu gün kifayət qədər öyrənilmişdir, biz uşaq televiziyası, əsasən də müxtəlif kanallarda yayımlanan uşaq proqramlarının müqayisəli analizinə rast gələ bilmədik. Təqdim olunan işin əsas məqsədi ilk olaraq bu məsələlərə xüsusi diqqət vermək, uşaq proqramlarının problemlərini açmaq və onun inkişafı üçün mümkün yolları təqdim etməkdir.

*Tədqiqatın məqsədi* – telekanallarda uşaq və yeniyetmə proqramlarının tipoloji və başqa xüsusiyyətlərini aşkar etməkdir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədqiqatın bizə maraqlı olan çərçivədə açar məqamlarının ayrılması vacibdir (məsələn, televiziyanın tarixi, onun rolu və funksiyaları, televiziyanın tipoloji xüsusiyyətləri, efirdə uşaq və yeniyetmə proqramlarının yeri və mahiyyəti, eləcə də televiziyanın ictimai cavabdehliyi) və buradan çıxış edərək konkret məsələlərin qoyulması.

Bizim qarşıya qoyulmuş məsələlərimiz bunlardır:

- ✓ televiziyanın yaranması və inkişafı tarixi, uşaq verilişlərinin yaranması;
- ✓ müasir dünyada televiziyanın kütləvi informasiya vasitəsi kimi rolu və funksiyalarının analiz edilməsi;
- ✓ televiziyanın KİV kimi tipoloji xüsusiyyətlərinin öyrənilməsi;
- ✓ Azərbaycan televiziyalarında uşaq və yeniyetmə proqramlarının icmalı, onun tipoloji xüsusiyyətlərinin təyin edilməsi;
- ✓ uşaq və yeniyetmə proqramlarının ictimai cavabdehlik problemlərinin öyrənilməsi.

Hazırda uşaqlıq və yeniyetməlik dövrünün problemlərinə çox az diqqət yetirilir. Buradan belə bir nəticə çıxır ki, bu sahədə yazılan elmi işlərin sayı həm azdır, həm sə səthilik təşkil edir.

*Nəzəri hissə* – işin öyrənilməsi və yazılmasında internet saytlarındakı məqalələrdən, televiziyaya həsr olunmuş araşdırmalardan, Azərbaycan Respublikası Konstitusiyasından, Televiziya və Radio yayımı haqqında qanundan istifadə edilib.

Araşdırmanın məqsədi yalnız uşaq proqramlarının vəziyyəti, həcmi və uşaq verilişlərinin mahiyyətini öyrənmək deyil, həmçinin mövcud vəziyyətdən-uşaqların televiziyanın diqqət mərkəzindən uzaqlaşdırılmasından çıxış yolunu göstərməkdir. Belə ki, onlar dəyərli istehlakçı və kommersiya cəhətdən cəlbedici auditoriya hesab edilmirlər. Sözsüz ki, araşdırma müasir Azərbaycan televiziyalarının tendensiyası baxımından vacib və aktualdır.

İşin nəzəri əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- ✓ uşaq verilişlərinin tarixi və inkişafı dinamikası təhlil edildi, uşaq və yeniyetmələrin tərbiyəsi və ictimailəşməsində rolu təyin edildi, uşaq verilişlərinin əxlaqı və faydası məsələləri qaldırıldı;
- ✓ telekanalların ümumi analizi verildi, kanallarda mövcud olan, uşaqların tərbiyəvi, psixoloji və ictimai mövqelərini əks etdirən uşaq verilişləri qiymətləndirildi;

- ✓ televiziya rəyinin formalaşdırılması analiz edildi, uşaq verilişlərinin tərbiyəedici funksiyaları öyrənildi;
- ✓ uyğun yollarla uşaqlara neqativ təsir göstərən, onlar üçün təhlükəli olan verilişlər izlənildi.

Araşdırmada, həmçinin, uşaqların hüquqları məsələsinə də xüsusi yer ayırılıb və onların hansı hüquqlara malik olduqları barədə məlumat verilib. Bundan başqa Azərbaycan Respublikasının digər qanunlarından uşaqlara aid olan bölmələri ayırd olunub, onlar da bu tezisə daxil edilib.

## MÜNDƏRİCAT

Giriş ........................................................................................................................8

Uşaqlar və onların hüquqları ......................................................................................13

Uşaq ədəbiyyatı və uşaqlar ........................................................................................23

Dünya və Azərbaycan teleməkanında uşaq verilişləri.............................................31

Uşaq televiziyasının ictimai cavabdehliyi.................................................................34

Elektron KİV-in uşaqlara təsiri..................................................................................37

Nəticə.........................................................................................................................75

# Giriş

Dünya növbəti bir inqilab dövrünü-sənaye sivilizasiyasından informasiya sivilizasiyasına keçid dövrünü yaşayır. Əgər bu dəyişikliyi qısa olaraq xarakterizə etsək görərik ki, əvvəllər ixtiyar sənaye və istehsalın əlində cəmlənmişdir. Bu gün isə ixtiyar o kəslərin əlindədir ki, onlar infomasiyanı əldə edir, ona sahib olur və informasiya axınını idarə etməyi bacarırlar.

Ta qədimdən, bəşəriyyətin yarandığı gündən insanlar informasiyaya ehtiyac duyub. Mübaliğəsiz demək olar ki, insanlar susuz yaşaya bilmədiyi kimi, informasiyasız da yaşaya bilməz. Bir anlığa təsəvvür edək ki, indiki informasiya bolluğu şəraitində bir neçə gün televiziya, radio və mətbuatsız, bir sözlə, informasiyasız qalmışıq. Belə bir şəraitdə insanın özünü necə hiss etməsini şərh etməyə ehtiyac yoxdur. İnsanlar arasında mənəvi körpüyə çevrilən informasiya həm də ünsiyyət yaradır.

Jurnalistikanın yaranması və inkişafı cəmiyyətin informasiya mübadiləsinə ehtiyacının nəticəsi kimi ortaya çıxmışdır. Biz bu gün informasiyanın böyük gücündən, bütün dünyada oynadığı aparıcı yoldan və bütövlükdə informasiyalı cəmiyyətdən çox danışırıq. Bununla belə insanın, cəmiyyətin informasiyaya ehtiyacı onun özünün yaranma tarixi qədər qədimliyə malikdir.

Dünyamız sürətlə inkişaf edir. Cəmiyyətimizin müasir inkişaf mərhələsində sözə maraq və tələb xeyli artmışdır. Artıq kağız daşıyıcılara əsaslanan informasiya xidməti praktikası köhnəlmiş, onun yerinə isə yeni -ən müxtəlif informasiyaların elektron təsvirlərinə əsaslanan xidmət növü gəlmişdir. Bu xidmət növü informasiyanın qeyri-məhdud sayda çoxaldılmasına, vaxtından və yerindən asılı olmayaraq istifadəçi tərəfindən dünya kompüter şəbəkəsindən dərhal əldə olunmasına geniş imkanlar açır. Bu gün kompüter dünyada milyonlarla insanın həyatının ayrılmaz hissəsinə çevrilmişdir.

Mətbuat yarandığı gündən ona müəyyən qadağalar, senzura qoyulmuşdur. Söz azadlığı ilə mübarizədə bir çox ölkələr senzuranın aradan qaldırılması ilə bağlı qanunlar qəbul etmişlər. Amerika konstitusiyasının yaradıcılarından biri

olan Ceyms Medison deyirdi ki, məlumatdan məhrum olan xalq məzhəkə və faciə doğuran hakimiyyətin astanasındadır. ABŞ konstitusiyasına birinci düzəliş ölkədə söz azadlığına qarşı senzuranı qadağan edib[1].

Böyük öndər M.Ə.Rəsulzadə 1911-ci ildə "İrani-nov" qəzetində çap etdirdiyi məqaləsində bu fikrə gəlirdi ki, "mətbuat o zaman vəzifəsini lazımınca yerinə yetirə bilər ki, öz işində tam azad olsun . Öz məqsədinə çatmaq üçün mətbuat tam azad olmalıdır"[2]. Azərbaycanın tarixi gerçəkliyinə nəzər salsaq deyə bilərik ki, mətbuatımızın söz azadlığı barədə bəxti uzun müddət gətirməmişdir. Mətbuatımızın yaranışı dövründən –1875-ci ildən 1990-cı illərin əvvəlinədək Rusiyanın sərt senzura şəraitində fəaliyyət göstərmişdir. Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra senzuranın ləğv olunması ilə bağlı qanunlar qəbul etmişdir. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında 50-ci maddə senzuranın aradan qaldırılması məsələsinə həsr olunur:

1. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

2. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində , o cümlədən mətbuatda dövlət senzurası qadağandır[3].

1995-ci ildə qəbul edilən Konstitusiyanın 50-ci maddəsi hər kəsin informasiya əldə etmək hüququnu təminat altına alıb. Konstitusiyaya bu müddəanın gətirilməsi təsadüfi olmayıb. Belə ki, 1948-ci ildə BMT-nin qəbul etdiyi İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsi, eyni zamanda 1966-cı ildə yenə BMT-nin qəbul etdiyi Mədəni və Siyasi hüquqların qorunmasına dair Konvensiyanın 19-cu maddəsi, 1950-ci ildə Romada qəbul edilən Avropa İnsan Hüquqlarının qorunmasına dair Konvensiyanın 10-cu maddəsi və Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlərə rəsmi sənədlərə çatım barədə 2002 –ci ildə qəbul edilən REC (2002) Tövsiyəsi bütünlükdə hər kəsin məlumat azadlığını-

---

1 Məmmədli C. Müasir jurnalistikanın inkişaf meylləri., –B.2006
2 Rüstəmli A. Jurnalistika., –B.2005
3 Azərbaycan Respublikasının Konstitusiyası.

informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi və yayılması hüququnu qoruyur.

2005-ci il sentyabrın 30-da Milli Məclisin qəbul etdiyi və 2005-ci dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanaraq qüvvəyə minən İnformasiya Əldə etmək haqqında Qanunun qəbul edilməsindəki məqsəd beynəlxalq hüquqla və Konstitusiya ilə hər kəsin təminat altına alınan informasiya əldə etmək hüququnu qanuni şəkildə tənzimləmək, azad, demokratik cəmiyyət quruculuğu prosesində idarəetmədə şəffaflığı təmin etməkdir.

Bu qanunun əsas məqsədi isə məhz informasiyanı əldə etmək, onu hər kəs üçün əlyetən etməkdir. Bu qanunun qəbul edilməsi və tətbiq edilməsi hüquqi və fiziki şəxslərin məlumat almaq hüququnu təmin etməklə bərabər, dövlətin hüquqi, demokratik dəyərləri mənimsəyən və şəffaf yönətilməsinə səbəb olan bir vasitədir.

Hazırda bəşəriyyət informasiya cəmiyyətinin formalaşması dövrünü yaşayır. Ölkələrdə informasiya cəmiyyətinin qurulması müasir cəmiyyət quruculuğunun əsas atributlarından hesab edilir. Azərbaycanda da informasiya cəmiyyətinin qurulması əsas hədəflərdən biridir. Dövlət başçısı tərəfindən bu siyasət ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Bu istiqamətdə qəbul olunmuş qərarlar və sərəncamlar daha aktiv və səmərəli fəaliyyət göstərmək üçün stimul verir.

Gəlin ilk növbədə bu sözün mahiyyətinə nəzər salaq. Adətən, bu terminə iki formada "İnformasiya cəmiyyəti" və "informasiyalı cəmiyyət" ifadələri kimi rast gəlirik. "İnformasiya cəmiyyəti" ifadəsi ingilis dilində "İnformation society", rus dilində "informasionnoye obşestvo" ifadələrindən götürülüb.

Artıq informasiya cəmiyyəti quruculuğu dövlət siyasətinin tərkib hissəsinə çevrilib, hər il bu məqsədlə ayrı-ayrı dövlətlər öz büdcələrindən külli miqdarda vəsait ayırırlar. Hətta informasiya cəmiyyəti sahəsində beynəlxalq əməkdaşlıqlar qurulur, təcrübə mübadiləsi aparılır, bütün ölkələr üçün ortaq sənədlər hazırlanır. 2003-cü ilin dekabr və 2005-ci ilin noyabr aylarında Cenevrə və

Tunisdə "İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti" adı altında keçirilən iki böyük tədbir də bu reallığın göstəricisidir.

Bu anlayışdan ilk dəfə Yaponiyada istifadə olunub. 1966-cı ildə elmi, texniki və iqtisadi araşdırmalar üzrə məruzə hazırlayan yapon mütəxəssislər alternativ anlayış kimi ilk dəfə olaraq, bu termini işlədiblər. Ümumilikdə isə İnformasiya cəmiyyəti quruculuğu 1950-ci illərdən başlayır.

Son yarım əsrdə dünyada ciddi qlobal dəyişikliklərin yaşandığı hiss edilməkdədir. Bütün ölkələri, xalqları, hətta konkret fərdləri əhatə edən bu dəyişikliklər qlobal anlamda yenidənqurma və gerçəkləşdirməni zəruri etdi. Bu yenilənməni zəruri edən amillərdən biri son illər elm və texnologiyanın çox sürətli inkişafı, bu inkişafdan irəli gələn kosmik layihələrin həyata keçirilməsi və nəticədə, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əldə edilən nailiyyətlərdir. Həmin nailiyyətlər, əvvəlcə, ölkələr arasında inteqrasiya və qloballaşma proseslərinin çiçəklənməsinə və inkişaf etməsinə səbəb oldu. Hələ ötən əsrin 40-cı illərində "texnotron cəmiyyət", "postindustrial cəmiyyət" kimi qeyri-ənənəvi terminlər səsləndirilməyə başlandı. Bu, hər şeydən əvvəl, hiss edilən yeniliyə ad qoymaq cəhdindən irəli gəlirdi. Ancaq bu terminlərdə müəyyən natamamlıq hiss olunurdu və onların daşıdığı məna ətrafda baş verən dəyişiklikləri tam ehtiva etmirdi. Ta ki, yapon mütəxəssislər "informasiya cəmiyyəti" terminindən istifadə edənə qədər. Məhz bundan sonra formalaşmaqda olan yeni formasiyanın adı informasiya cəmiyyəti kimi tarixə keçdi.

Məlumdur ki, informasiya yaşadığımız dövrün ən aktual anlayışıdır. İnformasiya cəmiyyətində yaşayan insanların informasiyaya qarşı daha çox həssas olmaları, informasiyaya nəzarət məqsədilə lazımi texniki şəraitin hazırlanması, informasiya sənayesinin iqtisadiyyatın bir sektoru olması, insanların amallarının informasiyaya istiqamətlənməsi diqqəti cəlb etməkdədir.

İnformasiya cəmiyyətinin özünəməxsusluqlarına qlobal informasiya mühitinin formalaşdırılması, İKT-dən kütləvi istifadə edilməsi, sosial və iqtisadi fəaliyyətin yeni formalarının ortaya çıxması, informasiyanın əmtəəyə çevril-

məsi, informasiya və bilik bazarının təsis edilməsi və inkişafı, təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması, demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin formalaşması da daxildir. Bütün bu sadalananlardan da göründüyü kimi, informasiya cəmiyyəti daha şəffaf və demokratik mühit təklif edir.

Demokratik idarəetmə forması fikrin azad ifadə olunmasını tələb edir. Bunsuz vətəndaşların siyasi və ictimai həyatda iştirak etmələri üçün vacib olan informasiyanı əldə etmək mümkün deyildir. İnformasiya daşıyıcısı və yayıcısı kimi isə mətbuatın və ya KİV-in azadlığı əsl demokratik vətəndaş cəmiyyəti quruculuğunun ən başlıca şərtlərindən biridir. Bütövlükdə söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Belə bir cəmiyyətdə yaşamaq və informasiyalardan məhrum olmaq ən azı "bədbəxtlik"dir. İnsanlarda dünyaya yeni baxış formalaşdırmaq günün ən vacib məsələsidir. Bu sahədə kütləvi informasiya vasitələrinin rolu çox böyükdür. Aşkarlıq və plüralizmin, söz və mətbuat azadlığının bərqərar olmasında KİV-in dördüncü hakimiyyət kimi fəaliyyəti artıq hamı tərəfindən birmənalı qəbul olunub.

Azərbaycan müasir KİV sistemində əsasən iki mühüm model-dövlət və özəl KİV fəaliyyət göstərir. Teleradio-elektron informasiya vasitələri KİV sistemində ayrıca yer tutur. Hazırda televiziya informasiyalı cəmiyyətin əsas atributlarından biridir. Heç şübhə yoxdur ki, ictimai fikrə təsir imkanları baxımından televiziya və radio bütün digər kütləvi infotmasiya vasitələrindən yüksəkdə dayanır. Televiziya və radio hər evə, ailəyə daxil olmuş, insanların gündəlik həyatının tərkib hissəsinə çevrilmişdir. Teleradio ana dilinin inkişafına, milli adət-ənənələrin qorunub saxlanmasına, cəmiyyətin maddi və mənəvi dəyərlər

sisteminin, ictimai şüurun və beynəlxalq aləmdə ölkə haqqında təsəvvürün formalaşmasına böyük təsir göstərir.

Müasir televiziya ən kütləvi vasitəyə çevrilib və şübhəsiz ki, informasiya, əyləncə və maarifləndirmənin yayılmasında ən güclü alətə bərabər tutulur. Bu gün teletamaşaçılar onlarla, bəzi regionlarda hətta yüzlərlə kanala baxa bilirlər.

A.Yurovski televiziya haqqında belə yazırdı: "Televiziya müstəqil şəkildə hər evə daxil olur, insan ailəsini tərk etmədən yayımlanma hərəkətinə qoşula bilir. Bu icazə verir ki, televiziya bütün jurnalistika üçün ümumi olan funksiyaları yerinə yetirsin. Lakin ekran təcəssüm etdirməsində ənənəvi jurnalistika janrları mühüm xüsusiyyət kəsb edirlər: onların məzmunu, mövzusu və ideyası bilavasitə müəlliflərin və hadisə qəhrəmanlarının, canlı insanların şəxsi xüsusiyyətləri kimi təzahür edir".[1]

Biliyə təzimi canlandırmaq, insanların ağlına yeni təsir vasitələrini yeritmək üçün zamanla təkmilləşmiş formaya əsaslanmaq lazımdır. İnformasiya cəmiyyəti üçün bu cür vasitə KİV-dir. Kütləvi informasiya vasitələri arasında müasir şərtlərə əsasən televiziya öndə gedir. Pik saatlarda ekran qarşısında on milyonlarla insan əyləşir. Nə radio, nə qəzet, nə də internet (əsasən Azərbaycan siqmenti) televiziya kimi bir anlıq da olsa bu qədər insanı cəlb edə bilmir.

Televiziyaya həsr olunmuş ilkin araşdırmalar ona texnikada inqilab yaradan texniki yenilik, ixtira kimi baxırdı. Hazırda televiziyanın cəmiyyəti dəyişməyə malik mədəni və sosial aspektlərindən danışılır. İndiki nəsil bu fikirlərlə böyüyüb ki, televiziya həyatın bir normasıdır. Cəmiyyətin əksər hissəsi ekrandan informasiya almağa alışıb, ona inanır və onu gerçəklik nümunəsi hesab edir. 20-30 il öncəki nəsil televiziyanın yaranması və əlçatan olmasının, televiziyanın insanların həyatını necə dəyişdiyinin şahidi olmuşlar.

İnformasiyanın əlçatan və ucuz olması – televiziyanın müsbət tərəfləridir, həmçinin mənfi xüsusiyyəti də var. Belə ki, o həm də başqaları üçün başqa rol oynaya bilir. Söhbət uşaqlardan, yeniyetmələrdən və gənclərdən-bəşəriyyətin ən

---

[1] Юровский А. Я. Место телевидение в системе средств массовой коммуникации / Телевизионная журналистика. – М: Высшая школа, 2002. – с. 34

açıq və həssas hissəsindən gedir. Onlar üçün idraki-maarifləndirici, əyləncəli verilişlər mövcuddur, bir sıra kanallar fəaliyyət göstərir, ancaq uşaq verilişlərinin həcmini Azərbaycandakı televiziya mühiti ilə müqayisə etsək, onun keyfiyyəti çox az görünəcək (ümumi normanın 3-4%-i). Bu cür vəziyyət nəinki televiziya rəhbərlərini, eləcə də müəllimləri və valideyinləri düşünməyə vadar edir.

*Tədqiqatın aktuallığı:* Biz uşaq verilişləri və uşaq televiziyaları ilə əlaqədar ən kəskin suallara toxunmağı, ümumiyyətlə mövzunu tədqiq etməyi və nəinki elm nümayəndələrinin, eləcə də cəmiyyətin diqqətini məqsədyönlü şəkildə bu sahəyə cəlb etməyi lazım bildik. Televiziyanın ən mühüm ideyası lazımi informasiyasını maksimum uzaq məsafəyə ötürmək və daha çox insan üçün əlçatan etməkdir. İlk telekanalın yaranmasına qədər radio daha geniş yayılmış və populyarlaşmışdı, buna baxmayaraq, onun da böyük çatışmazlığı vardır – görüntünün olmaması. Məlumdur ki, radio və televiziyada istifadə olunan elektromaqnit dalğaları ötürülən proqramların siqnalını modulyasiya edir. Radio verilişində bu siqnallar yalnız səsdən, televerilişlərdə isə səs və görüntüdən ibarətdir.[1]

İlk uşaq verilişləri televiziyanın hamı üçün əlçatan olmasından sonra yaranmışdır. Əvvəllər bu teletamaşalar və multiplikasiya filmləri olmuş, daha sonralar isə verilişlərin siyahısı genişlənmiş və müxtəlifləşmişdir.

Bu gün uşaq proqramları verilişlər cədvəlinin müəyyən bir hissəsini təşkil edir və eyni zamanda uşaq və yeniyetmələri öyrətməyə, bilgiləndirməyə və əyləndirməyə imkan yaradır. Televiziyanın uşaq və yeniyetmələr üçün ən başlıca üstünlüyü və dəyəri bundan ibarətdir. Baxmayaraq ki, maarifləndirici yöndə olan verilişlərdə əyləndirici funksiya üstünlük təşkil edir, burada əsas məqsəd yalnız onların yaradılması deyil, həm də bu verilişlərin effektivliyi, eləcə də uşaqlara təsirinin izlənməsi vacibdir.

---

[1] Радио и телевидение / Энциклопедия Кругосвет на DVD. – М: Медиа Хауз, 2008

*Tədqiqatın obyekti* –Azərbaycan televiziyalarında uşaq verilişləri. Televiziya tədqiqat üçün çox böyük bir sahədir. Belə ki, o, insan həyatının bütün sferalarını özündə cəmləşdirir. Əslində bu, real həyatın orijinallığını əks etdirir, geniş sosial bir modeldir ki, onu bir çərçivə daxilində tədqiq etmək mümkün deyil. Burada tədqiqat üçün yalnız bir bölmə –uşaq və yeniyetmə proqramları seçilib. Bu verilişlər yetişən nəslin fikrinə, mühakiməsinə və dünyagörüşünə birbaşa təsir göstərməsi baxımından xüsusilə vacibdir.

*Mövzunun işlənmə dərəcəsi* –Televiziya kanallarında uşaq verilişlərinin təqdimatı probleminə dair Q.Aidə "Uşaqlar dünyanın sevincidir", A. Dadaşov, Q. Məhərrəmov "Televiziya və radio tamaşaları", "Ə.İbrahim,Y.Cəfərova "Uşaqlarımızın istedadına diqqətli olaq", Галкина.Г. "Телеэкран приглашает детей", Костюк.А "Дети и ТВ" kimi elmi araşdırmaları qeyd etmək olar.

*Müdafiəyə çıxarılan müddəalar* - "Azərbaycan elektron KİV-də uşaq verilişləri, uşaqların formalaşmasında müasir medianın rolu" (Dövlət və özəl televiziya kanalları: müqayisəli təhlil) mövzusunun işlənməsində əsas məqsəd Azərbaycan teleməkanında yayımlanan uşaq verilişlərinin hazırkı vəziyyəti, uşaq verilişlərinə verilən tələblər və onların hər birinin sistemli şəkildə təhlilə cəlb olunması, həmin bu verilişlərdə mövzu struktur problemlərinin araşdırılması əslində televiziya kanallarımızın bədii səviyyəsinin necə olmasının göstəricisidir.

## *I FƏSİL*

## UŞAQLAR VƏ ONLARIN HÜQUQLARI

Cəmiyyətin həssas və kövrək zümrəsi kimi həmişə yüksək qayğı və nəvazişlə əhatə olunan uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi zərurəti müasir dövrdə hər bir dövlətin üzərinə uşaq hüquqlarının müdafiəsi ilə bağlı yeni vəzifələr qoyur. İnsan hüquqlarını demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin ədalətli cəmiyyətə qovuşmaq idealının ali təzahürü, vətəndaş cəmiyyətinin yetkinliyinin əsas meyarı kimi qəbul edən hər bir dövlət sağlam gələcəyi naminə körpələrin yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır.

Hamımızın hüquqlara ehtiyacı vardır. Onlar bizim yaşamağımıza və inkişaf etməyimizə təminat verir və bizi müdafiə edir. Həmçinin hüquqlar bizə təsir edən faktlarda əhatə olunan imkanlara malikdir. Hüquqlar hər kəsə bərabər və ədalətli şəkildə davranılmasına təminat verir. İnsan haqlarının müdafiə edilməsi bütün insanların bəşəri ləyaqətinə hörmət göstərilməsini tələb etməkdən ibarətdir.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1948-ci il dekabrın 10-da qəbul etdiyi "İnsan Haqlarına dair Ümumbəşəri Bəyannamə" də insanların bir çox hüquqları öz əksini tapmışdır. Bu hüquqlar arasında ən mühümləri:

**Maddə 1:** Bütün insan varlıqlarının öz ləyaqəti və hüquqları ilə doğulması

**Maddə 3:** Şəxsin həyat, azadlıq və təhlükəsizlik hüququ

**Maddə 18:** Fikir, vicdan və din azadlığı

**Maddə 19:** Söz və əqidə azadlığı

**Maddə 26:** Təhsil hüququ.

Uşaqların hüquqları dedikdə 18 yaşından aşağı uşaqların və yeniyetmələr üzrə insan hüquqları başa düşülür. Uşaqlığın bizim həyatımızda xüsusi dövr olduğu barədə faktın qəbul edilməsi ilə uşaqlar və gənclər üçün ayrıca hüquqlar

toplusu yaradılmışdır. Bu, insan övladının ən çox böyüdüyü və öyrəndiyi, qayğısına qalınması və təhlükəsizliyi üçün digərlərinin köməyinə daha çox ehtiyac duyduğu, şənlənmək istədiyi bir dövrdür.

1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı uşaqların məxsusi konvensiyaya ehtiyacı olduğu razılığına gəldi. Uşaqlar və gənclər üçün bu hüquqlar toplusu Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyası adlanır. BMT-nin Uşaq Hüquqları Konvensiyası, hökumət və əlaqədar qurumların, bütün uşaqların hüquqlarını müdafiə etmək sahəsində görəcəyi tədbirləri müəyyən etmişdir. Bu, onu göstərir ki, 18 yaşından aşağı uşaqlar hər hansı irqi, dini və bacarıqları, hər hansı düşündükləri və ya dedikləri və hər hansı təmsil etdikləri ailə növünü əhatə etdiyi kimi bütün hüquqlara malikdir.[1]

Bütün bu prinsipləri nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 20 noyabr 1989-cu ildə Uşaq Hüquqları haqqında Konvensiyanı təsdiq etdi. Bu, hazırda ölkələr tərəfindən imzalanmaqla və ratifikasiya edilməklə qanuni surətdə riayət olunması tələb edilən bir sazişdir. Sözü gedən sənəd insan haqlarının tam əhatəsinin birləşdirilməsi üçün ilk qanuni icbari beynəlxalq vasitədir. Konvensiya Somali və Amerika Birləşmiş Ştatlarından başqa, dünyanın bütün hökumətləri tərəfindən ratifikasiya olunmuşdur.

Ratifikasiyaya əsasən, hökumətlər öhdəlik götürürlər ki, uşaqlar təhlükəsiz və təminatlı şəraitdə, böyüyə və inkişaf edə, yüksək keyfiyyətli təhsil və səhiyyə xidməti ala və yaxşı həyat şəraitində yaşaya bilər.

Bu, o deməkdir ki, hökumətlər, uşaqların diskriminasiyadan, seksual və kommersiya istismarı və qanun pozuntusundan qorumağa, yetim uşaqlara və gənc qaçqınlara xüsusi qayğı göstərməyə razılaşırlar.

Konvensiya dövlətlər tərəfindən uşaqların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən tədbirləri ölçmək məqsədilə, meyarlar müəyyən etmişdir.

[1] Uşaq Hüquqları haqqında Konvensiya.

Beş ildənbir, hökumətlər BMT-nin Uşaq Hüquqları Komitəsinə hesabat verməlidir.

Komitə təkmilləşdirmək üçün təklifləri verməzdən öncə, əldə edilən nəticələri nəzərdən keçirir, hökumət nümayəndələri ilə görüşür və qeyri-hökumət təşkilatlarının (QHT) rəyini öyrənir[1].

Konvensiya əsasında uşaqlar öz ilkin ehtiyaclarının yerinə yetirilməsi hüququna malik olacaqlar: yaşama, müdafiə, səhiyyə, qida və su. Həmçinin onlar özlərinin tam potensialının əldə olunmasına kömək edən imkanlardan istifadə hüququna malikdirlər: təhsil, oyun, idman növləri, fikir azadlığı və onlara təsir edən qərarlara cəlb olunma.

Konvensiya bütövlükdə 54 maddədən ibarətdir, onun 41 mühüm maddəsindən dördünə xüsusi diqqət yetirilmişdir. Çünki onlar əhatə olunan bütün hüquqların icrası üçün ilkin hesab edilir. Konvensiyanın "ümumi prinsipləri" kimi tanınmaqla, bu maddələr aşağıdakılardan ibarətdir:

**Maddə 2:** Konvensiya ilə zəmanət verilən bütün hüquqlar hər hansı növə ayrı-seçkilik qoyulmadan bütün uşaqlara verilməlidir.

**Maddə 3:** Uşağın ən yaxşı maraqları uşaqlarla bağlı bütün tədbirlərdə başlıca olaraq nəzərdən keçirilməlidir.

**Maddə 6:** Hər uşaq həyatda qalmaq, yaşamaq və inkişaf etmək hüququna malikdir.

**Maddə 12:** Uşağın fikri ona təsir edən bütün məsələlərdə nəzərdən keçirilməli və nəzərə alınmalıdır.

Konvensiya uşağın və uşaqlığın yeni görünüşünü əks etdirir. Bu yolla onlar valideynlərinin mülkiyyəti olmaqdan çıxır və müstəqil, azad insan kimi məxsusi hüquqlar qazanırlar. Konvensiya uşağın yaşına və inkişaf mərhələsinə uyğun hüquqlar və öhdəliklər ilə güclü, səriştəli fərd kimi və ailənin və icmanın üzvü kimi uşaq təsəvvürünü canlandırır. Demək olar ki, konvensiya tamamilə uşaq üzərində cəmləşir.

---

[1] Kütləvi İnformasiya Vasitələri və Uşaq Hüquqları. BMT-nin Uşaq Fondu.

Uşaq hüquqlarının müdafiəsi, onların normal sosial-mənəvi mühitin hökm sürdüyü cəmiyyətə layiqli insan kimi yetişməsi, zəruri ehtiyaclarının dolğun şəkildə ödənməsi, azyaşlı körpə və yeniyetmələrin zəngin daxili potensialının, dünya görüşünün formalaşmasına imkan verən yaradıcı atmosferin formalaşdırılması son on beş ildə Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməklə, özündə yüksək humanist dəyərləri ehtiva etmişdir. 1993-cü ildən bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmiş, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, o cümlədən 1994-cü ildə BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sına qoşulmuş, qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Uşaq hüquqları haqqında" (1998), habelə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" (1999) Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin " Uşaq ili" elan edilməsi respublikada uşaq hüquqları sahəsində həyata keçirilən dövlət siyasətinin ardıcıl və məqsədyönlü xarakter daşıdığını, praktik fəaliyyətə əsaslandığını bir daha təsdiqləyir.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, uşaq problemlərinin həllinin hər hansı bir dövlət qurumu çərçivəsində məhdudlaşdırılması məsələyə adekvat yanaşma deyildir. Uşaqların təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması kimi mühüm istiqamətlər cəmiyyətin bütün təbəqələrinin üzərinə məsuliyyət qoyur. Dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti təsisatları, həmkarlar ittifaqları, habelə kütləvi informasiya vasitələri də respublikada uşaq siyasətinin daha səmərəli və dolğun həyata keçirilməsinə yaxından kömək göstərməli, ictimai diqqəti uşaq hüquqlarına yönəltməyə çalışmalıdır.

BMT-nin Uşaq Hüquqlarına dair Konvensiyasına əsasən uşaqların hüquqlarına daxildir:

**Maddə 12:** uşaqların onlara toxunan bütün məsələlərdə öz fikirlərini sərbəst ifadə etmək hüququ

**Maddə 13:** uşaqların fikir azadlığı hüququ “ milli təhlükəsizliyin və ya ictimai asayişin... və ya ictimai səhiyyənin və ya mənəviyyatın” qorunması üçün lazım gəldikdə qanunla məhdudlaşdırıla bilər

**Maddə 17:** medianın əhəmiyyətinin qəbul edilməsi və “uşağın onun rifahına xələl gətirən məlumat və materialdan qorunması üçün uşağa sosial və mədəni fayda verən materialın yayılması və müvafiq təlimatların işlənib hazırlanmasının stimullaşdırılması”

Sonuncu maddə məlumatın yayılmasında medianın mühüm rolunu müfəssəl izah edir ki, bu da üzv dövlətlərə spesifik tapşırıqlar verməklə daha geniş mənada uşağın rifahını yüksəldir. Bu, onu şərtləndirir ki, dövlət “kütləvi media tərəfindən yerinə yetirilən vacib funksiyanı qəbul etməli” və “xüsusən uşağın sosial, ruhi və mənəvi rifahı və fiziki və əqli sağlamlığının gücləndirilməsinə yönəlmiş müxtəlif milli və beynəlxalq mənbələrdən məlumat və material əldə etdiyinə təminat verməlidir”.

Uşaqlarla media arasındakı əlaqədən danışarkən “Oslo çağırışı”nı unutmamaq lazımdır. 1999-cu ilin noyabr ayında media layihələrinə cəlb olunan gənclər, media peşəkarları və uşaq hüquqları sahəsində çalışan mütəxəssislər beş sərlövhə altında bütün dünyadakı uşaqların hüquqlarının inkişaf etdirilməsində medianın oynaya biləcək rolunu müzakirə etmək məqsədilə Norveçin paytaxtı Osloda toplaşdılar.

1. Uşaqların mediadan, o cümlədən yeni mediadan istifadə etmək hüququ;

2. Uşaqların media maarifləndirməsinə və savadına malik olmaq hüququ;

3. Uşaqların mediada iştirak etmək hüququ;

4. Mediada uşaqların zərərdən müdafiə olunmaq hüququ və zorakılığın ekranda göstərilməsi;

5. Uşaqların hüququnun qorunmasında və gücləndirilməsində medianın rolu.

Onların müzakirələrindən "Oslo Çağırışı" meydana gəldi. UHK-nın ayrı-ayrı əsas maddələri media və uşaqlardan bəhs edir. Uşaq Hüquqları Komitəsi nəzərdən keçirilməsi üçün üç başlıca sahəni müəyyənləşdirmişdir:

- ✓ media reportajı vasitəsilə uşaq obrazının təkmilləşdirilməsi yolları;
- ✓ mediada uşaqların fəal iştirakının stimullaşdırılması;
- ✓ mediada uşaqların zərərli təsirlərdən qorunması.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Uşaq Hüquqları konvensiyasına və Konvensiyanın Fakultətiv Protokollarına qoşulmuşdur. Azərbaycan Respublikası beynəlxalq sənədlərə qoşulmaqla uşaqların maraqlarının təmin edilməsi və hüquqlarının etibarlı qorunması üçün öz üzərinə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklərə uşaqların əqli və mənəvi inkişafına zərər vura biləcək məlumatdan qorunması, onların şəxsiyyət kimi böyüməsi, şərəf və ləyaqətinin dövlət tərəfindən qorunması və onlara aid şəxsi məlumatların məxfi saxlanılmasına dair şəraitin yaradılması haqqında müddəalar da daxildir.

Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" qanununda deyilir ki, "Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir". Qanun beş fəsildən, 45 maddədən ibarətdir.

***I Fəsildə*** qanunun təsir dairəsi, uşaqlar barəsində dövlət siyasəti, uşaqların müəyyən edilmiş hüquqları öz əksini tapır.

**Maddə 2**. Uşaq hüquqları barəsində qanunvericilik.

Uşaq hüquqları barəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Digər hüquqi normativ

aktların normaları uşaqların bu Qanunla müəyyən edilmiş hüquq və azadlıqlarını məhdudlaşdıra bilməz.

**Maddə 3.** Uşaqlar barəsində dövlət siyasəti.

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

***II Fəsil*** uşaq və ailə münasibətlərindən, valideynlərin hüquq və vəzifələrindən bəhs edir.

**Maddə 17.** Uşağın ailədə yaşamaq hüququ.

Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.

**Maddə 19.** Valideynlərin hüquq və vəzifələri.

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin müdafiəsi valideynlərin əsas vəzifələridir.

Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunıa nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər.

Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

***III Fəsil*** uşaq və cəmiyyət münasibətləri, uşağın əmək hüquqları, fitri istedada malik uşaqlara dövlət qayğısı kimi vəzifələrdən bəhs edir.

**Maddə 23.** Fitri istedada malik uşaqlara dövlət qayğısı.

Dövlət fitri istedada malik uşaqların erkən yaşdan üzə çıxarılması və onların qabiliyyətinin qiymətləndirilməsi üçün tədbirlər görür, onlar üçün adlı və xüsusi təqaüdlər müəyyən edir, xüsusi təhsil müəssisələrinin sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir.

**Maddə 26.** Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ.

Uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüquqları vardır.

Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir.

***IV Fəsil***də əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsindən, bununla bağlı dövlət proqramları, övladlığa götürmə və uşaqların müdafiəsindən danışılır.

**Maddə 30.** Əlverişsiz şəraitdə yaşayan uşaqların müdafiəsi üzrə dövlət proqramları.

Dövlət hərbi əməliyyatlar, epidemiya, təbii və ekoloji fəlakətlər zonasında yaşayan və ya onların təsirinə məruz qalan, habelə yetim uşaqların, natamam (valideynlərdən biri olmayan), aztəminatlı ailələrin uşaqlarının, şəhid uşaqlarının müdafiəsini xüsusi proqramlar əsasında təmin edir.

**V fəsil** yekun müddəalar adlanır və burada qanunun pozulmasına görə məsuliyyət və beynəlxalq müqavilələrə toxunur.

**Maddə 43.** Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili.

Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

**Maddə 44.** Bu Qanunun pozulmasına görə məsuliyyət.

Bu Qanunun tələblərinin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 45.** Beynəlxalq müqavilələr.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.[1]

Jurnalistlər cəmiyyətin gözü, qulağı və səsidirlər. İnsan hüquqlarının çempionları kimi, onlar, hətta öz həyatları risk qarşısında qalarsa belə, diqqəti qanun pozuntusuna tərəf yönəldir, hökumət və digər əlaqədar qurumları insanların həyatında yaxşılığa doğru dəyişikliklər etməyə çağırır.

Jurnalistlər, fotoqraflar və proqram tərtibatçıları tez-tez, uşaqların özlərindən asılı olmayan hadisələr zamanı tutulmaları və ya onların böyüklər tərəfindən təhqirə və ya istismara məruz qalmaları halları ilə rastlaşırlar. Lakin bu da vacibdir ki, KİV mütəxəssisləri "uşaq amilini" məlumatlarda həmişə şərti olaraq əks etdirsinlər. Qanunlarda və ya illik siyasətdə edilən dəyişikliklərin ən yaxşı yoxlama mexanizmi, edilən dəyişikliklər nəticəsində uşaqların əldə etdiyi xeyir və ya onlara dəyən ziyan hesab oluna bilər.

Başqa bir həlledici məsələ xüsusən pop musiqisinin və modanın işıqlandırılması vasitəsilə medianın uşaqları vaxtından əvvəl cinsi fəal olmağa və ya cinsi fəal kimi görünməyə stimullaşdırıb-stimullaşdırmamasından ibarətdir.

Bir tərəfdən, kütləvi niformasiya vasitələri qəzet məlumatları, fotoşəkillər, sənədli filmlər və dram əsərləri ilə zorlanan və ya zorlayanın əhvalatlarını açıqlayır. Digər tərəfdən, onlar xəbərlər və reklam ilə uşaqların cinsi təhrikedici obrazlarının yaradılması ilə özləri istismarçıya çevrilə bilərlər.

Media peşəkarları uşaqların hüquqlarının müdafiəsinə yönələn səyləri diqqətlə nəzərdən keçirərək və uşaqların qarşısında öz öhdəliklərini yerinə yetirməyənləri tənqid edərək, bu hüquqların xəbərlərin gündəliyində saxlanılmasına hazır olduqlarını bildirmişlər. Lakin kommersiya təzyiqləri bu məsuliyyətdən

---

[1] Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu

yayınmaq üçün mediaya təsir edə bilər. Etika kodeksi kommersiya öhdəliklərinə qurban verildikdə, maraqların qeyri-münasib tarazlığı üstünlük təşkil edir.

Birincisi və ən başlıcası, asılı və asanlıqla istismar və ya sui-istifadə olunmasına baxmayaraq, uşaqlara hörmət edilməlidir. KİV-lər uşaqları "günahsız məxluq" kimi təsvir etməkdənsə, uşaqlara danışmaq imkanı verməklə –onların özləri haqda, ümidləri, təhlükələri, nailiyyətləri, böyüklərin onlara qarşı münasibətləri, davranışları haqda danışmaqları ilə, ictimaiyyətə uşaq hüquqları barədə daha çox məqamları çatdıra bilərlər.

KİV-lər uşaqların hüquqlarının pozulma hallarına və cəmiyyətin onlara münasibətinə biganə qalmamalıdırlar.

Bu gün Azərbaycanda istər məktəblərdə, istərsə də ali ixtisas sahələrində uşaq hüquqları necə təmsil olunur? Ümumiyyətlə, gələcəyimiz hesab etdiyimiz uşaqlar öz hüquq və vəzifələrinin nədən ibarət olduğunu bilirlərmi?

Bu suallara cavab tapmaq üçün bir neçə məktəb şagirdləri ilə ünsiyyətdə olduq və anladıq ki, Azərbaycan məktəblərində uşaqlar və onların hüquqlarını anladan heç bir fənn tədris olunmur. Çox böyük təəssüf hissi ilə qeyd etmək istəyirik ki, sabahın böyükləri olacaq bu yeniyetmə və gənclər özləri bilmədikləri halda gələcək nəsil uşaqlara onların malik olduğu hüquqları necə başa sala biləcəklər. Bizcə, bu sahədə bir sıra yeniliklər etmək lazımdır. Məktəblərdə olmasa da daha çox auditoriya yığmaq qabiliyyətinə malik televiziya kanallarında bu barədə müəyyən verilişlər hazırlanmalı və buraya qeyri-hökumət təşkiltlarından, ombudsmandan nümayəndələr dəvət olunaraq uşaqların hüquqları mövzusu müzakirəyə qoyulmalıdır.

### *II FƏSİL*

## UŞAQ ƏDƏBİYYATI VƏ UŞAQLAR

Ümumi ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi,onun spesifik bir qolu olan uşaq ədəbiyyatı söz sənətinin strateji əhəmiyyət kəsb edən bir sahəsidir. Ona görə ki, uşaq ədəbiyyyatı birbaşa məktəblə, təlim-tərbiyə ilə, yeni nəslin ədəbi zövqünün formalaşması ilə əlaqədardır. Uşaq vaxtı gözəl şeirlər, hekayələr, nağıllar oxuya-oxuya ədəbi zövqü formalaşmayan, ürəyində mütaliəyə həvəs, ehtiyac oyanmayan insanın böyüyəndə ciddi sənət nümunələrini anlaması bir qədər inandırıcı təsir bağışlamır. Öyrəndiyi ilkin ədəbi nümunələr uşağın ədəbiyyata, mütaliəyə həvəsini artırdığı kimi, heç bir məzmun və forma gözəlliyi, didaktik və tərbiyyəvi əhəmiyəti olmayan ümumi söz yığımından ibarət nəzm parçaları, hekayələr, nağılllar isə uşağın şeirə, sənətə, müstəqil oxuya marağını birdəfəlik öldürə bilər. Elə buna görə də ədəbiyyatımızın sabahı namınə onun çox həssas və vacib sahəsi olan uşaq ədəbiyyatına ümumxalq səviyyəsində xüsusi qayğı, diqqət, eyni zamanda tələbkarlıq lazımdır. Uşaq ədəbiyyatını təlim-tərbiyə işindən başı çıxmayan, uşaq psixologiyasını bilməyən, poetik zövqü son dərəcə aşağı səviyyədə olan naşı yazarların ümidinə buraxmaq olmaz.

Burada istər-istəməz görkəmli maarifpərvər Cəlil Məmmədquluzadə ilə bağlı maraqlı bir fakt yada düşür. Bir gün cavan bir qələm sahibi özündən razı halda Mirzə Cəlilə deyir: "Mirzə, necə məsləhət görürsən, istəyirəm ki, mən uşaqlar haqqında bir kitab yazam?"

Gənc qələm sahibinin təkəbbürü Cəlil Məmmədquluzadənin xoşuna gəlmir. O, incə bir yumorla soruşur ki, bala, mən başa düşə bilmirəm, məgər uşaqlardan uşaqlar yazırlar?

Rus uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri, pedoqoji elmlər akademiyasının həqiqi üzvü S.Mixalkov çox doğru olaraq qeyd edirdi ki, o adam ki, uşaqla oynamağı bacarmır, ondan uşaq yazıçısı ola bilməz. Rus uşaq ədəbiyyatının digər görkəmli nümayəndəsi K.Çukovski görkəmli pedoqoq,

psixoloq idi. O, uşaqların heç bir hərəkətinə, heç bir sözünə biganə qalmır, onları öyrənməyə, başa düşməyə çalışırdı. Elə buna görə də, onun yazdığı əsərləri uşaqlar böyük maraqla oxuyurdular. Dünya uşaq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan italiyalı C.Rodari də ixtisasca müəllim idi, özünün etirafına görə əsər yazanda öz şagirdlərindən öyrəndikləri onun çox köməyinə gəlmişdi...

Doğrudan da, uşağın diqqətini cəlb eləyən, onu maraqlandıran əsərlər yazmaq üçün ilk növbədə körpələri yaxından tanımaq, onların arzu və düşüncələrini, yaş səviyyələrini bilmək və nəzərə almaq zəruridir. Bir faktı xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan uşaq ədəbiyyatının ilk nümunələrini yaradan, bu ədəbiyyatın formalaşmasında xidməti olan yazıçıların əksəriyyəti ixtisasca müəllim, pedaqoq, tərbiyəçi, maarifpərvər ziyalılar olmuşlar. A.Bakıxanov, S.Ə.Şirvani, H.Zərdabi, A.Səhhət, M.Ə.Sabir, C.Məmmədquluzadə, R.Əfəndiyev, F.Köçərli, A.Şaiq, S.S.Axundov və başqa bu kimi qələm sahiblərimiz uşaqlar üçün əsər yazarkən, başqa xalqların dilindən mətnlər tərcümə edərkən, dərsliklər hazırlayarkən ilk növbədə uşaqların yaş xüsusiyyətlərini nəzərə almış, uşaq oxusu üçün tədris ədəbiyyatı yaratmağa cəhd göstərmişlər. Uşaq ədəbiyyatına maraq Azərbaycan müəllimlərinin 1906-cı ildə keçirilən birinci qurultayından sonra daha da artmışdır. Məktəblərin açılması ideyası uşaqlar üçün dərsliklərin yaranması, uşaqlar üçün əsərlər yazılıb nəşr edilməsi zərurətini ortaya qoymuşdur. Beləliklə, ilk uşaq mətbuatı meydana gəlmişdir. Nəşr illəri oqədər uzun olmasa belə, Azərbaycan uşaq ədəbiyyatının sistemli şəkildə formalaşmasında “Dəbistan”, “Rəhbər”, “Məktəb” dərgilərinin çox böyük rolu olmuşdur. Bu jurnallarda H.Zərdabi, N.Nərimanov, S.M.Qənizadə, M.Hadi, M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov, F.Köçərli, A.Şaiq kimi müasir Azərbaycan yazıçılarının əsərləri ilə bahəm onların Krılovdan, Puşkindən, Lermontovdan, Höteden, Hüqodan, Qorkidən, Sədidən elədikləri tərcümə əsərlərinin nəşri uşaq ədəbiyyatımızın coğrafi ərazisini genişləndirmək sahəsində atılan ilk addımlar olmuşdur. Bundan başqa maarifpərvər ziyalılarımızın tərtib elədikləri ilk dərs-

liklərdə, oxu kitablarında dünya folklorundan, dünya yazıçılarının əsərlərindən nümunələrin verilməsi uşaq ədəbiyatımızın inkişaf istiqamətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

"Hərb və sülh", "Anna Karenina", "Dirilmə" kimi çoxşaxəli romanlar müəllifi, xarakter yaratmaq ustası kimi tanınan Lev Tolstoyun uşaq oxusu üçün əsərlər toplaması, başqa dillərdən xarakterik nümunələri yaradıcı şəkildə tərcümə eləyib, işləyib öz oxu kitabına daxil eləməsi, uşaq ədəbiyyatına çox böyük önəm verməsi təsadüfi deyildi. Dahi yazıçı dərindən dərk eləyirdi ki, xalqı qəflət yuxusundan ayıltmaq, kütləni savadsızlığın pəncəsindən xilas etmək üçün uşaq ədəbiyyyatına böyük ehtiyac vardır. Elə buna görə də o həm özü uşaqlar üçün əsərlər yazır, xarakterik sandığı olmuş hadisələri qələmə alır, həm də digər xalqların nağıllarından, təmsillərindən yaradıcı şəkildə bəhrələnirdi. Məsələn,uzun illər dərsliklərimizdə özünə möhkəm yer tutan, Lev Tolstoyun əsəri kimi təqdim olunan "İki yoldaş" rəvayəti əslində Qrimm qardaşlarının topladığı nağılların birindən iqtibas edilmişdir.

Bu üsuldan bizim uşaq yazıçılarımız, dərslik tərtib edən pedaqoqlarımız da bəhrələnmişlər. Abdulla Şaiqin "Xoruz", "Keçi", "Uşaq və dovşan" və s. bu tipli şeirləri indi bütün Azərbaycan uşaqlarının dilinin əzbəridir. Ədəbiyyat tarixindən az-çox xəbəri olanlar bilir ki, Abdulla Şaiq də bu və ya buna bənzər əsərləri qələmə alıb dərsliklərə salarkən Lev Tolstoyun istifadə etdiyi metoddan bəhrələnmişdir.

***Ay pipiyi qan xoruz,***
***Gözləri mərcan xoruz.***
***Sən nə tezdən durursan,***
***Qışqırıb banlayırsan.***
***Qoymayırsan yatmağa,***
***Ay canı məstan xoruz.***

Bu misralarla rus variantında təqdim etdiyimiz aşağıdakı şeir parçasını müqayisə etsək, izahata heç o qədər də böyük ehtiyac qalmır və bunu deməklə bizim fikrimiz dahi uşaq yazıçımızı gözdən salmaq deyildir, əksinə, onun "əlim-yandıda" dərslik yaradarkən nə qədər həssaslıq və uzaqgörənliklə digər xalqların ədəbiyyatından bəhrələnməsini təqdir etməkdir. İndi özümüz müstəqillik dövrünün dərsliyini yaratmaq cəhdi göstərərkən günün, müasir dövrün tələblərinə, müstəqil Azərbaycan Respublikasının təlim-tərbiyə siyasətinə uyğun bədii parçalar tapmayanda Abdulla Şaiqi çox yaxşı başa düşürük.

***Petuşok, petuşok,***
***Zolotoy qribişok.***
***Zaçem rano vstayoş,***
***Zaçem qromko payoş.***
***Zaçem spat ne dayoş?***

Sovet hakimiyyəti illərində uşaq ədəbiyyatının yaranması və inkişafına çox böyük əhəmiyyət verilmişdir. Hökumət öz ideologiyasına uyğun əsərlərin yazılmasına, nəşrinə xüsusi diqqət yetirmiş, müəllifləri həvəsləndirmək üçün onları mükafatlandırmış, təltif etmişdir. Bu iş Azərbaycanda da davam etdirilmişdir. O dövrdə yaranan uşaq ədəbiyyatı nümunələri ümumilikdə vahid sosializm ideyalarının təbliğinə xidmət eləsə də, həmin əsərlərin əksəriyyəti hətta bu gün belə ümumbəşəri əhəmiyyət kəsb edir. Böyüklər üçün yaraqdılan ədəbiyyatla müqayisədə uşaq ədəbiyyatına ideologiyanın təsiri o qədər də böyük olmamışdır. Xüsusən, təbiətə, anaya, uşaqların arzu və düşüncələrinə, onların qəribə hərəkətlərinə həsr olunan əsərlər bu gün də öz təsir gücünü itirməmişdir.

Abdulla Şaiqin davamçıları olan Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Xanımana Əlibəyli, Teymur Elçin kimi qələm sahiblərinin yaratdıqları əsərlərin əksəriyyəti indi də öz aktuallığını, bədii və estetik dəyərini itirməmişdir. Əsasən böyüklər üçün yazıb-yaradan, bu sahədə əhəmiyyətli uğurlar

qazanan S.Vurğun, M.Müşviq, M.Rahim, S.Rəhimov, Ə.Vəliyev, M.İbrahimov, M.Hüseyn, R.Rza, N.Rəfibəyli, M.Dilbazi, Ə.Cəmil, Ə.Cəfərzadə, İ.Şıxlı, B.Bayramov, H.Abbaszadə, Ə.Abbasov, B.Azəroğlu, M.Gülgün, B.Vahabzadə, N.Xəzri, Q.Qasımzadə, H.Arif, X.Hasilova, Ə.Babayeva, Y.Əzimzadə, M.Araz, Ə.Kərim, T.Bayram, Anar, Elçin, F.Qoca, F.Sadıq, N.Həsənzadə, X.R.Ulutürk, Y.Həsənbəy, H.Kürdoğlu, M.Aslan, İ.İsmayılzadə, Ə.Salahzadə, Ç.Əlioğlu, S.Sərxanlı, V.İbrahim, M.Ələkbərli, A.Cəmil, M.Abdulla kimi qələm sahiblərimizin də uşaqlar üçün əsərlər yazıb çap etdirmələri əhəmiyyətli ədəbi faktlardır. Emin Mahmudov, Namiq Abdullayev uşaqlar üçün çox böyük əhəmiyyət kəsb edən fantastik əsərlər yazmağa üstünlük vermişlər. Ancaq təəssüf ki, bu gün onların da yolunu davam etdirən cavan uşaq yazıçılarımız yoxdur.

Elə yazıçılarımız da olmuşdur ki, onlar daha çox uşaqlar üçün yazmışlar. Belələrinə misal olaraq E.Ağayevin, Ə.Əmrahovun, Z.Cabbarzadənin, Həbibənin, T.Mütəllibovun, N.Süleymanovun, Ə.Səmədlinin, T.Mahmudun, H.Ziyanın, C.Məmmədovun, İ.Tapdığın, M.Günərin, S.Məmmədzadənin, F.Tanrılının, Z.Xəlilin, T.Ağayevin, K.İsgəndərin, M.Quluzadənin, M.Sabirin, M.Namazın, Q.İsabəylinin, T.Mirzənin, Ş.Xəlillinin, Ə.Quluzadənin, S.Nuruqızının, G.Almazın və b. adlarını çəkə bilərik. Regionlarda da çox istedadlı uşaq yazıçılarımız vardır. Onlardan A.Əlizadənin, S.İbrahimlinin (Gəncə), Ə.Əlioğlunun (Goranboy), M.Hüseynzadənin (Şəmkir) çap olunan əsərləri göstərir ki, bu istedadlı qələm sahiblərinin yeni tipli uşaq ədəbiyyatı yaratmaq baxımından potensial imkanları böyükdür.

Bir məsələni də xüsusi vurğulamaq yerinə düşərdi ki, hər yaş dövrünün öz ədəbiyyatı olmalıdır. Bağça yaşlı uşaqlarla ibtidai sinif şagirdlərini, ibtidai sinif şagirdləri ilə 5-8-ci sinifdə oxuyan uşaqları, orta yaş dövrünü keçirən balalarımızla yeniyetməlik dövrünü yaşayanları eyni tutmaq olmaz. Hər yaş dövrünə uyğun ədəbiyyat nümunələri yaranmalıdır. Çünki müxtəlif yaş dövrlü uşaqların anlam və maraq dairələri, psixoloji durumu bir-birindən əhəmiyyətli dərəcədə

fərqlənir. Lakin təəssüf ki, bizdə uşaq ədəbiyyatı deyəndə elə yalnız ibtidai məktəb yaşlı uşaqlar üçün yazılmış əsərlər nəzərdə tutulur.

Azərbaycan dövlətinin qayğısı və dəstəyi sayəsində uşaq ədəbiyyatının yaranmasında, formalaşmasında, uşaq və yeniyetmələrin dünyagörüşünün artmasında, oxu vərdişlərinin inkişafında, bilik dairələrinin genişlənməsində xüsusi xidməti olan "Göyərçin", "Günəş" (keçmiş "Pioner") jurnalları, "Savalan" (keçmiş "Azərbaycan pioneri") qəzeti indi də fəaliyyətini davam etdirir. "Göyərçin" məktəbəqədər yaşlı və ibtidai sinif şagirləri üçün, "Günəş" və "Savalan" isə orta yaşlı uşaqlar üçün nəzərdə tutulub. Yeniyetmələr və gənclər üçün nəşr edilən, vaxtilə ən böyük tirajlı və nüfuzlu qəzetlərimizdən biri olan "Azərbaycan gəncləri" qəzeti təəssüf ki, indi fəaliyyət göstərmir və indiki mətbuat bolluğu içərisində onun missiyasını davam etdirən bir dənə də olsun nüfuzlu qəzetimiz yoxdur.

Hər bir mətbuat orqanı öz oxucularının yaş səviyyəsinə uyğun əsərlər çap etməlidir. Balacalar üçün kiçik şeirlər, yığcam hekayə və nağıllar lazımdırsa, orta yaşlı uşaqların məlumat dairəsi geniş olduğu üçün şeir və hekayə ilə yanaşı povest və romanlara da ehtiyac vardır. Vaxtilə E.Ağayevin "Şişpapaq", "Dəcəllər", Q.İlkinin "Üçtəpə uşaqları", "Ömrün oğlan çağı", "Qalada üsyan" povestlərini, Ə.Əhmədovanın "Damda yaşayan Karlsonla bacada yaşayan Damdabacanın macəraları" romanını, N.Abdullayev və E.Mahmudovun fantastik hekayə və povestlərini orta yaşlı uşaqlar və yeniyetmələr böyük maraqla oxuyurdular. İndi təəssüf ki, bu tipli əsərlər yaranmır. Hamı öz qələmini kiçik yaşlı uşaqlar üçün şeirlər, nağıllar yazmaqla sınamaq istəyir. Halbuki indi orta yaşlı uşaqlar və yeniyetmələr üçün ədəbiyyata da çox böyük ehtiyac vardır.

Əlifbanı yenicə öyrənən uşaqların müstəqil oxusu üçün yığcam, sadə, didaktik və tərbiyəvi əhəmiyyətə malik uşaq ədəbiyyatı nümunələrinə böyük ehtiyac vardır. Uşaq ədəbiyyatının dili sadə, aydın, obrazlı olmalıdır ki, uşaq elə ilk oxuduğu nağıldan, hekayədən, şeirdən sonra yavaş-yavaş dilimizin incəliklərini öyrənməyə başlasın, bu dilin şirinliyini, ahəngdarlığını, musiqililiyini duy-

sun, hiss eləsin və bundan sonra onun müstəqil şəkildə oxumağa, öyrənməyə həvəsi güclənsin.

Nə qədər istedadlı adamın qələmindən çıxsa belə, balacalar üçün yazılan şeirlər, hekayələr, nağıllar orta yaşlı uşaqlar və yeniyetmələr üçün maraqlı deyildir. Onları düşündürən problemlər daha ciddi, əhatəli, düşündürücü, problematik hekayələrin, romanların, povestlərin, fantastik əsərlərin ortaya qoyulması zərurətini gündəmə gətirir. Elmi-texniki tərəqqi, internet əsrinin uşaqlarının marağını təmin etmək üçün yazıçı çox ciddi oxumalı, öyrənməli, gərgin yaradıcılıq axtarışları aparmalıdır. Bunun üçün isə o, maddi cəhətdən tam təmin olunmalıdır ki, digər yardımçı işlərlə məşğul olmağa ehtiyac qalmasın.

Bizə elə gəlir ki, Azərbaycan dilində müasir səviyyəli, həm məzmun, həm də tərtibat cəhətindən gözəl uşaq kitablarının yaranmamasının, meydana gəlməməsinin günahını təkcə yaradıcı insanalarda axtarmaq düzgün deyildir. Uşaq yazıçısının birinci vəzifəsi balalarımız üçün gözəl əsərlər yazmaqdan ibarətdir. Bunun üçün isə onun maddi təminatla bərabər mənəvi təminatı da olmalıdır. İndi ən istedadlı, imkanlı yazıçı belə öz hesabına nəfis tərtibatla, kütləvi tirajla uşaqların zövqünü oxşayan kitablar çap etdirib yaymaq imkanına malik deyildir. Onu da maliyyə xərclərinin digər kitablarla müqayisədə nə qədər baha başa gəlməsi danılmazdır. Uşaq yazıçısına həm qayğı, diqqət, həm də tələbkarlıq lazımdır.

Ən əsas problemlərdən biri də oxucu problemidir. Təəssüflə olsa da, qeyd olunmalıdır ki, indi cəmiyyətdə mütaliəyə maraq çox azalıb. Kitab mağazalarının əksəriyyəti öz profilini dəyişib. Kitab ticarəti, kitab yayımı şəbəkəsi günün tələblərinə cavab vermir. Müəlliflərin öz hesabına çap olunun kitablarının tirajının ən çoxu 500 nüsxə olması bir yana, heç o 500 nüsxəni yaymaq ehtimalı da çox azdır. Nəinki uşaqların, yeniyetmələrin, hətta valideynlərin də kitaba, qiraətə münasibəti acınacaqlıdır. Televiziyalarda gedən şoularda kimisə dəstəkləmək üçün qızırğalanmadan SMS-lər göndərənlərin kitaba, jurnala pul xərcləməyə əli gəlmir. Uşaqlarına bahalı hədiyyələr, mobil telefonlar alan, ona ən azı ayda on

manatlıq kontur yükləyən valideynlər görəsən ildə on iki manat verib "Göyərçin" jurnalına, digər uşaq mətbuatlarına abunə yazılsalar nə itirərlər? Əvəzində balaları onların tərbiyəsinə mənfi təsir göstərən şouların tüğyan etdiyi ekranlardan gözlərini çəkib, uşaq təfəkkürünə uyğun əsərlər oxusalar çox şey qazanarlar.

Bir məsələni də xüsusi qeyd etmək yerinə düşərdi. Uşaq mətbuatı dövlət tərəfindən maliyyələşdirilir, ancaq onun yayımı böyük bir problemə çevrilib. İndi ölkəmizdə təxminən 4500-dən yuxarı məktəb var. Görəsən, hər məktəb üçün çox yox, cəmi-cümlətanı bircə nüsxə "Göyərçin", Günəş" jurnallarına, "Savalan" qəzetinə abunə yazdırmaq mümkünsüzdürmü? Ümumi işimizin, bugünkü uşaqların xatirinə əlaqədar təşkilatlar lazımi dəstəyi, köməyi göstərməlidir.

Filosoflar çox doğru qeyd eləyirlər ki, tarix təkrar olunur. Hələ ötən əsrin əvvəllərində də kitab nəşri, onun yayımı çox böyük çətinliklərlə üzləşirdi. O zaman fəaliyyət göstərən "Nicat" xeyriyyə cəmiyyətinin kitab nəşr eləyib yaymaq siyasətini Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə kimi ziyalılarımız dəstəkləyirdilər. Görəsən indi imkanlı xeyriyyəçilərimiz onsuz da toylarda qazanan ala-babat müğənnilərimizə sponsorluq etmək əvəzinə uşaq kitabları nəşr etdirib yaymaq kimi çox faydalı bir işdən niyə uzaq qaçırlar? Niyə onlar unudurlar ki, bütün millət üçün bu işin faydası böyükdür?

Fəxarətlə demək olar ki, dünya uşaq ədəbiyyatının bir sıra nümunələri vaxtilə dilimizə tərcümə edilib nəşr olunmuşdur. İndi vəsait olsa həmin əsərləri də nəfis tərtibatlı kitablar şəklində uşaqlarımıza təqdim etmək böyük fayda verə bilərdi.

Ölkəmiz gündən-günə güclənir, inkişaf edir. Balalarımızın təlim-tərbiyəsinə dövlət səviyyəsində qayğı göstərilir. İndi yüksək səviyyədə uşaqlar üçün əsərləri kütləvi tirajla, nəfis şəkildə nəşr eləyib yayan, müəllifləri həvəsləndirən, onlara gördükləri işin dəyəri müqabilində qonorar verən təşkilata-nəşriyyata böyük ehtiyac duyulur. Yoxsa yazıçının öz vəsaiti hesabına ala-babat çap olunan, yayılması böyük problemə çevrilən üç yüz, beş yüz tirajlı kitablarla inkişaf etməkdə olan ölkənin tələbatını ödəmək mümkün deyildir. Sovet dövründə

yazıb-yaradan uşaq yazıçılarımızın, şairlərimizin əsərləri içərisindən də günün tələblərinə cavab verən uşaq hekayələrini, nağıllarını, povestlərini, şeir və poemalarını seçib yenidən dövlət səviyyəsində çap etməyə böyük ehtiyac duyulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə kiril əlifbasında olan kitabların dövlət hesabına latın qrafikalı Azərbaycan əlifbası ilə yenidən nəşr edilib kitabxanalara hədiyyə edilməsini bu yolda atılan ilk uğurlu addım hesab etmək olar. Ümid eləyirik ki, balalarımızın təlim-tərbiyəsinə xüsusi diqqət yetirən ölkə rəhbərliyi bütün sahələrdə olduğu kimi, bu sahədə də ardıcıl siyasətini ardıcıl davam etdirəcəkdir.

Gələcəyin ləyaqətli vətəndaşını yetişdirmək və tərbiyə etmək üçün ən dəyərli vasitələrdən biri də günün tələblərinə cavab verən, həm müstəqil Azərbaycan Respublikasının ideologiyasına, həm də müasir dövrün tələblərinə uyğun əsərlər yazıb nəşr etdirməyə böyük ehtiyac vardır. Lakin bu, bizdən əvvəl yaranmış əsərlərdən imtina etmək demək deyildir. Onların da arasından günümüzlə səsləşən ədəbi nümunələri seçib yenidən nəşr etməyə böyük ehtiyac duyulur.

Öz ədəbiyyatımızla, musiqimizlə, incəsənətimizlə uşaqlarımızı öz tərəfimizə çəkə bilməsək, çox şey itirə bilərik. Onlar informasiya bolluğu və seçim azadlığı şəraitində bizim yox, başqa bir xalqın nümayəndələri kimi böyüyə, formalaşa bilərlər. Bunun üçün Mirzə Cəlil demişkən, hamımız “papağımızı qabağımıza qoyub düşünməli”, balalarımızın tərbiyəsi, estetik zövqünün formalaşması üçün əlimizdən gələni əsirgəməməliyik. Bir də xatırlatmağı vacib sanırıq ki, bu gün öz yaş səviyyələrinə uyğun poetik nümunələri oxumayanlar, sabah böyüklər üçün yaradılmış ən ciddi, ən gözəl əsərlərimizə belə biganə qalacaqlar.

Uşaq ədəbiyyatı, onun yaranması, nəşri, yayımı çox böyük əhəmiyyət kəsb edir. Ona görə də ilkin mərhələdə bu məsələnin müzakirəsinə, yollar axtarıb tapılmasına böyük ehtiyac duyulur. Ümid edirəm ki, maarifpərvər ziyalılarımız, alimlərimiz, pedaqoqlarımız, yazıçı və naşirlərimiz səsimizə səs verəcək, öz fikir

və mülahizələrini söyləyəcək, problemdən çıxış yolunu tapmaqda bizə yardımçı olacaqlar.

Uşaq mətbuatına aid jurnalları, demək olar ki, barmaqla saymaq olar. “Göyərçin”, “Elli”, “Elli boya”, “Bala dili”, “Ümid”, “Cırtdan”, “Üç alma”, “Şəkər bala” və s. kimi jurnallar çap olunur. Onların əksəriyyətinin işıq üzü görməsində ANS nəşriyyat evinin də payı az deyildir.

## *III FƏSİL*

## DÜNYA VƏ AZƏRBAYCAN TELEMƏKANINDA UŞAQ VERİLİŞLƏRİ

Heç şübhə yoxdur ki, ictimai fikrə təsir imkanları baxımından televiziya bütün digər kütləvi informasiya vasitələrindən yüksəkdə dayanır. Müasir dövrdə televiziyanın təkcə kommunikasiya vasitəsi deyil, həmçinin həyatın istiqamətverici qüvvəsi kimi dəyərləndirilməsi yetişən nəslin mənəvi, psixoloji tərbiyəsində özünün başlıca və danılmaz yerini tutur. Televiziyanın ictimai funksiyaları olan informasiya, əyləncə, həmçinin də maarifçiliyin tərbiyə işində əhəmiyyətli yeri var. Bu günün gəncini və ya yeniyetməsini, uşağını televiziyaya baxmadan yaşamasını təsəvvür etmək çətindir. Televiziya, xüsusən də kommersiya televiziyası təkcə özünün kommersiya maraqlarının ardınca gedib marketinq problemlərini həll etməməli, həmçinin gənclərdən ibarət auditoriyanın mənəvi cəhətdən zəngin formalaşmasında, vətənsevər, insanpərvər olmasında iştirak etməlidir.

XX əsrin kəşfləri arasında kütləvi informasiya vasitələrinin, xüsusilə də televiziyanın əhəmiyyəti danılmazdır. Əyləndirmək və öyrətmək funksiyası daşıyan televiziya nəinki biz böyüklərin, hətta azyaşlı uşaqların da həyatının bir hissəsinə çevrilib. Hazırda uşaqlar çox zərif yaşda televiziya dünyasını aşkar edir. Bir çox tədqiqatlar göstərir ki, altı yaşdan kiçik uşaqlar gün ərzində orta hesabla iki saat televizor, video və ya DVD-yə baxır.

Müasir dövrdə bütün dünyada televiziyanın uşaqlara mənfi, yaxud müsbət təsir etməsi ciddi müzakirə mövzularındandır. Çünki müasir uşaqlar ailə mühitində belə, təkcə öz valideynləri ilə deyil, həmçinin televizorla da ünsiyyətdə olur.

Bəzi mütəxəssislərin fikrincə elmi məzmunu olmayan və sırf əyləncə xarakteri daşıyan verilişlər uşaqların zehni fəaliyyətlərini zəiflədir və onların yaradıcılıq duyğularını əllərindən alır. Həmçinin, televiziya çox vaxt qiymətli

saatların bihudə keçməsinə gətirib çıxarır və uşaqların tərəqqisinə səbəb ola biləcək mütaliə, maraqlı oyunlar, idman və məktəbdən xaric fəaliyyətlərin qarşısını alır.

Sosioloq U.B.Berner televiziyanın təsir dairəsi haqqında belə yazır: "Televiziya bir cadugər qarı kimi öz tilsimini hər tərəfə yayır, söhbətləşməyi və fəaliyyəti dayandırır. Tilsim öz qüvvəsini itirmədikcə (yəni, TV izləndikcə) tamaşaçının həyatına sükut çökür". Ola bilər ki, TV-nin yaratdığı təhlükə ilk növbədə insan rəftarı ilə birbaşa bağlı olmasın. Lakin bu təhlükə elə rəftarlara aid olur ki, televiziya onun zahir olmasının qarşısını alır – söhbətləşmək, oynamaq, mübahisə etmək (hansı ki, uşaq bir çox şeyləri mübahisə yolu ilə öyrənərək formalaşır) və s. TV-nin cərəyana qoşulması ilə uşağın formalaşma prosesi dayanır. Bu məsələ ilə bağlı tədqiqatçıların apardıqları misilsiz araşdırma – "TV-nin təsiri: üç fərqli cəmiyyətdə təbii bir test" başlığı altında mətbuat səhifələrində dərc edilmişdir. Tədqiqatçılar Kanadanın Natel adlı kiçik bir şəhərinə televiziya proqramları translyasiya olunanda onların göstərdiyi təsiri sənəd olaraq gətirmişlər (Natel coğrafi mövqeyinə görə keçən on il ərzində TV-dən məhrum kiçik bir şəhər idi). Tədqiqatçılar bu iş üçün iki dəfə TV-nin Natelə daxil olmasından öncə və sonra uşaqların müxtəlif bacarıq və qabiliyyətlərini imtahan edirlər. TV-dən öncəki araşdırmanın nəticəsi heyrətləndirici idi –onların qiymətləri digər iki şəhərin uşaqlarınkından üstün olmuşdur. TV-dən sonrakı imtahan isə onların qiymətlərinin nə qədər aşağı düşdüyünü göstərmişdir.

Los Ancels Universitetinin müəllimi, professor Vaksmen deyir: "Heç bir şübhə yoxdur ki, televizor ekranlarından yayılan elektromaqnit dalğaları insan orqanizminə ciddi surətdə mənfi təsir göstərir. Bu qısa dalğalar televizor, radioqəbuledici və digər elektrik avadanlıqları vasitəsilə yayılır. Bunun ilk təsirləri kimi baş ağrısı, baş gicəllənməsini göstərmək olar. Bu, tədricən insanda təfəkkür qüvvəsinin zəifləməsinə, qan təzyiqinin pozulmasına və iztirabların artmasına gətirib çıxarır. Bundan başqa, bu dalğalar əsəb sisteminə də mənfi təsir göstərir və müxtəlif xəstəliklərin yaranmasına səbəb olur".

Doktor Karl isə yazır: “Radioqəbuledici, televizor və münasib olmayan idman növləri uşaqların əhval-ruhiyyəsini sarsıdır”.

Əgər bir şəxs 40 yaşından etibarən gün ərzində bir saat yarım televizor proqramlarına tamaşa edərsə, 60 yaşında kitab oxumaq bacarığını əldən verəcək, oxuduğu mövzular yaxşı yadında qalmayacaq və məlumatları təhlil və tətbiq edə bilməyəcək. Əgər bir uşaq 18 aylığından televizor tamaşaçısıolub 3 yaşınadək adət edərsə, məlumdur ki, bu ona nə kimi təsirlər göstərəcəkdir. 1975-ci ildə Qərbi Almaniyada müəllimlərin 80%-i vaxtından əvvəl təqaüdə çıxmağa səy edirmiş. Buna səbəb şagirdlərdə ruhi pozuntuların çoxalması, diqqətsizlik və dərsi tam qavraya bilməməkləri olmuşdur.

Beləliklə, araşdırmaya əsasən belə nəticəyə gəlmək olur ki, televiziyada uşaqların fəaliyyətinin qarşısını alan bir səbəb var. Həmin səbəb bundan ibarətdir: uşaqların asudə vaxtlarından səmərəli istifadə etmələrinə, onların yüksək qiymətlər əldə etmələrinə şərait yaratmışdır. Həmin fəaliyyətin yerini TV-nin tutması isə onların geriləməsinə səbəb olmuşdur.

Bir çox hallarda televiziya uşaqlar üçün effektiv ola bilər, xüsusilə də elm və ya təbiət proqramları uşaqların biliyini və dünyagörüşünü genişləndirir. O, həmçinin dünya mədəniyyətini və dünya cəmiyyətini onlara təqdim edir.

İlk növbədə onu bildirək ki, televiziya uşaqları məlumatlandıran, maarifləndirən vasitədir. Düzgün seçilmiş proqram uşaqların xəyal gücünü, dünyagörüşünü artırır. Söz ilə görüntünün eyni anda verildiyi televizor uşaqların diqqətini çəkir və öyrənməni asanlaşdırır. Televiziya verilişləri uşağa böyüklərə hörmət, insanlararası münasibət, mərhəmət və bu kimi müsbət hisslər aşılayır. Bundan əlavə, təbiətlə az ünsiyyətdə olan, xüsusən də böyük şəhərlərdə yaşayan uşaqların təbiət, ətraf mühit və bitkilər barəsində olan sənədli filmləri izləməsi faydalıdır. Bu kimi proqram və filmlər uşaqların yaradıcı təfəkkürünün inkişafında mühüm əhəmiyyət kəsb edir.

Amma istənilən halda televiziya ilə bağlı valideynin uşağa nəzarəti olmalıdır. Axı uşaq verilişləri və filmlərinin özü də yaş kateqoriyalarına ayrılır. Rus

alimi, bioloq Kara Murzaninin televiziyanın uşaqlara təsiri ilə bağlı çox maraqlı bir yazısı var. Alim dünyanın müxtəlif ölkələrindən faktlar gətirir ki, tok-şoulara, realiti şoulara baxan uşaqlar, yeniyetmələr gerçək həyatda onları təkrarlayaraq ölümlə nəticələnəcək faciə törədirlər. Yəni televizora aludə olan uşaqlar virtual dünya ilə gerçək həyat arasındakı sərhədləri itirdiyindən ilk növbədə onlara valideyn tərəfindən nəzarət mexanizmi olmalıdır.

Uşaqlar haqqında həmişə ən gözəl və xoş sözlər deyilib. Bütün müdriklər ömrümüzə işıq gətirən, ailələrə fərəh bəxş edən balaları çox haqlı olaraq "xoş gələcəyimiz" adlandırıblar. Uşağın düzgün tərbiyəsi təkcə bir ailənin deyil, bütün cəmiyyətin önəm verdiyi əsas məsələlərdəndir. Elə buna görə də məşhur pedaqoqlar, təcrübəli psixoloqlar uşağın düzgün tərbiyəsi ilə bağlı dəyərli araşdırmalar apararaq kitablar yazıblar, məsləhətlər veriblər. Uşaq tərbiyəsi ailədə elə ahəngdə qurulmalıdır ki, gələcəkdə onun ancaq xoş bəhrəsini görəsən. Düzgün tərbiyə uşağın hərtərəfli formalaşması deməkdir. Təbii ki, milli mentalitetin, adət-ənənənin, sınaqdan çıxmış üsulların, təcrübələrin öz yeri və əhəmiyyəti var. Uşağın tərbiyəsində ailə mühiti xüsusi əhəmiyyət daşıyır. Əbəs yerə deməyiblər ki, uşaq ailənin güzgüsüdür. Valideyn necədirsə, ailədəki etik münasibətlər, davranış, əhval-ruhiyyə –bütün bunların hamısı ifrat dərəcədə, yəni olduğundan da artıq o güzgüdə əks olunur.

Bəllidir ki, televiziyanın təsir etmək imkanları çoxdur. Televiziya vasitəsilə kütlənin psixologiyasını belə dəyişmək mümkündür. Düzgün qurulmuş strategiya ilə mütəmadi olaraq işıqlandırılan hər hansı bir mövzunu şüuraltına yeritmək o qədər də çətin deyil.

Cəmiyyətin mənəvi tərbiyəsi yönündən götürəndə televiziyanın birbaşa təsiri ilə yanaşı dolayısı ilə, yəni altşüura təsir etmək imkanları ilə effektli təsir edə bilir. Xüsusən də bədii-sənət verilişləri hesabına. Bu barədə tənqidçinin fikri maraqlıdır: "İş elə gətirdi ki, televiziya yaranarkən heç bir estetik iddiada olmadı. Bu, onun mədəniyyət forması kimi təşəkkül tapması prosesini, sələflərindən fərqli olaraq, bir o qədər də mürəkkəb və təzadlı etmədi. Televiziya elə ilk addı-

mından səsli-görümlü informasiyanı vermək və bədii mədəniyyət əsərlərini reproduksiya etmək üçün müəyyən texniki kanal, kütləvi kommunikasiya vasitəsi kimi fəaliyyətə başladı"[1]. Televiziya tarixinə nəzər yetirdikdə burada bəşər mədəniyyətinin ən böyük nümunələrinin yeni və televiziya sənətkarlığı cəhətdən hazırlanaraq təqdimatı olduqca böyük təsir etməklə cəmiyyətin mənəvi tərbiyəsində özünəməxsus rolu oynaya bildi. Hazırda telefilmlər, teletamaşalar, istərsə də digər sırf ədəbi-bədii verilişlər şüurlara təsir edə biləcək, onların hiss-həyəcanlarını əks etdirəcək maarifləndirmə işini təşkil edə bilir.

XXI əsrdə internetin sürətlə yayılması və inkişafı ilə televiziyanın əhəmiyyəti daha da artaraq, onu təsiretmənin ən kütləvi silahına çevirib. Odur ki, cəmiyyət özü yerli televiziyanın konsepsiyası ilə vaxtaşırı da olsa maraqlanmalıdırlar. Ölkəmizə müxtəlif təmsilçilər tərəfindən gətirilən bütün uşaq verilişləri-animasiya filmləri, bədii filmlər, sənədli televiziya filmləri, əyləncəli və maarifləndirən proqramlar psixoloqlar tərəfindən xüsusi diqqətlə seçilməli və yalnız bundan sonra televiziyada yayımlanmalıdır. Bu, müxtəlif ölkədə istehsal olunan audiovizual məhsulların müxtəlif mədəniyyət, subkulturoloji, dini və hətta siyasi-ictimai cərəyanların təbliği ilə izah olunur. Foto-video çəkiliş texnikasının inkişaf etdiyi dövrdə audiovizual materiallar çox effektiv təbliğat vasitəsidir. Adətən, belə mövzular uşaq verilişlərində açıqlanır ki, bunun da səbəbi hələ formalaşmayan dünyagörüşünü " lazımı" istiqamətə yönəltməkdir. Bu səbəbdən də yerli televiziyalarda, yerli mütəxəssislərin, uşaq və valideynlərin rəyi nəzərə alınmaqla keyfiyyətli uşaq verilişlərinin hazırlanmasına ehtiyac var. Uşaq verilişlərinin hazırlanması mütləq xarakter daşımalı və bunun üçün dövlət büdcəsindən xüsusi maliyyə ayrılmalıdır. Əks halda hər hansı bir yerli televiziyaya etibar etməyən, konkret desək, inanmayan valideyn övladının da o telekanalda yayımlanacaq uşaq verilişinə baxmasını əngəlləyəcək.

Uşaq proqramlarının əsas tələbləri bunlardır:

- ilk növbədə səmimilik olmalıdır;

[1] Muzı veka. - Moskva. "İskusstvo", 1978.

- uşaqlar üçün verilişlər başdansovdu, nəyinsə xatirinə hazırlanmamalıdır;

- uşağın yaşından asılı olaraq verilişin spesifikası müəyyənləşməlidir: kiçik yaşlı uşaqlar üçün mövzu vizuallıqla, yəni sadə, anlaşıqlı görüntülərlə çatdırılmalıdır;

- mütləq müsbət dəyərlər aşılanmalıdır;

- və dəqiq auditoriya hədəf seçilməlidir.

Televiziyada hazırlanan hər bir veriliş, o cümlədən uşaq verilişləri müəyyən tələblərə cavab verməlidir. Əgər veriliş uşaqlar üçün hazırlanırsa bu zaman ona verilən tələblər 2 tipdə olmaldır.

1. Televiziya təcrübəsindən gələn tələblər.

2. Psixoloji və pedaqoji incəliklərdən gələn tələblər.

Demək olar ki, psixoloji və pedaqoji incəliklərdən gələn tələblər uşaq verilişləri üçün daha vacibdir. Çünki bu verilişlərin uşaqların şəxsiyyət kimi formalaşmasında, dünyagörüşünün artmasında bilavasitə rolu vardır.

Uşaq verilişlərinə verilən tələblərdən ən əsası aparıcının düzgün seçilməsidir. Uşaq verilişlərinin aparıcısından çox sey aslıdır. Elə bu günkü verilişlərin zəifliyinin başlıca səbəbi də yaxşı aparıcıların olmamasıdır. Hər kəsə məlumdur ki, uşaqlar üçün veriliş hazırlamaq çox çətindir. Bu çətinliklər də daha çox aparıcının üzərinə düşür. Uşaqlara kameradan qorxmamağı, sərbəst olmağı öyrətmək səbr və zaman tələb edən işdir. Uşaq verilişlərinin aparıcısı səbrli olmalıdır. Çünki bəzi uşaqlar utancaq olur, bəziləri sözə baxmır dəcəllik edir. Bir sözlə aparıcı müxtəlif xarakterli uşaqlarla işləyir. Onların nazı ilə oynamaq üçün gərək səbrli olasan.

Verilişin maraqlı olması ilk növbədə aparıcıdan aslıdır. Bunun üçün aparıcılar bir çox tələblərə cavab verməlidirlər. İlk növbədə onlar sadə formada, yəni uşağın başa düşəcəyi dildə danışmalıdırlar. Aparıcı uşaq psixologiyasına bələd olmalıdır. Çünki uşaqlar müxtəlif xarakterli olur. Məhz buna görə də hər bir uşağa fərdi yanaşmaq lazımdır. Veriliş zamanı uşaqların sərbəst olması

aparıcıdan aslıdır. O elə şərait yaratmalıdır ki, uşaqlar heç nədən çəkinməsinlər, öz fikirlərini müstəqil ifadə edə bilsinlər.

Aparıcı üçün növbəti vacib amil öz dilini mükəmməl bilməsidir. Aparıcı zəngin söz ehtiyatına malik olmaldır, əcnəbi sözlərdən istifadə etməməlidir. Azərbaycan dili zəngin lüğət tərkibinə malikdir. Belə bir dilə sahib olduğumuz halda, əcnəbi sözlərdə istifadə etməyə heç bir lüzum yoxdu. Aparıcıların nitqində olan qüsurlardan hiss olunur ki, onlar az mütaliə edirlər, söz ehtiyatları çox azdır. Aparıcılar öz üzərilərindən çox işləməli, nitqlərinə diqqət yetirməlidirlər. Aparıcının nitqi əyani, intonasiyalı, söhbətin məzmununa uyğun mimikada olmalıdır.

Televiziya uşaqların həyatında ən geniş yayılmış media təsirlərindən biridir.

Televiziyada göstərilən uşaq verilişləri barədə danışmamışdan öncə Azərbaycanda televiziyanın vəziyyətindən danışmaq istərdik.

Azərbaycan Respublikası bildiyimiz kimi, uzun illər SSRİ-nin tərkibində olduğundan və təbii ki, televiziyada senzura hökm sürübdü.1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdi. Müstəqillik yolunda kövrək addımlarını inkişafı qayğısına qaldı. Azərbaycan müstəqillik qazandıqdan sonra mətbuat sürətlə inkişaf yoluna çıxdı.

SSRİ-nin dağılması ona gətirib çıxardı ki, informasiya vasitələri üzərindəki monopoliya tədricən ləğv edildi. Dünyada baş verən qlobal dəyişikliklər Azərbaycandan da yan keçmədi. Bu dəyişikliklər mətbuatda olduğu kimi radio və televiziya sahəsində də özünü göstərdi. Elektron informasiya vasitələrinin inkiçafı üçün şərait yarandı.

XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi strateji seçim və dövlət siyasətinin prioritetinə çevrildi. 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat

azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratdı.

Azərbaycanda azad KİV-in yaranması hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas şərtlərindən biri kimi qəbul olunmuşdur və daim dövlətin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyev söz və məlumat azadlığını, kütləvi informasiya vasitələrinin müstəqilliyini demokratik cəmiyyət quruculuğunun vacib şərti hesab edirdi.

1998-ci ildə Azərbaycanda senzuranın ləğvi, sonrakı illərdə KİV-nin fəaliyyətini tənzimləyən qanunvericilik bazasının beynəlxalq standatrlara uyğunlaşdırılması, onların müstəqilliyinin inkişaf etdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilmiş çoxsaylı tədbirlər azad, demokratik medianın formalaşması üçün mühüm addımlar oldu.

Hazırda Azərbaycan dövləti və cəmiyyəti keyfiyyətcə yeni inkişaf dövrünü yaşayır, ictimai həyatın bütün sahələri yeniləşir, dünya standatrlarına cavab verən informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur, insanların rifahı yüksəlir. Vüsət alan inkişaf prosesləri təbii olaraq KİV-lərdən də yan keçməmişdir. Mətbuat orqanlarının vergi yükünün azaldılması, qəzetlərin borclarının dövlət vəsaiti hesabına silinməsi, aparıcı kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi, jurnalistlərin mükafatlandırılması və sairə son illərdə Azərbaycanda həyata keçirilmiş mühüm tədbirlərdir.

Azərbaycanda kütləvi informasiya vasitələrinin, xüsusilə televiziya və radio kanallarının inkişaf tarixi göstərir ki, onlar Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maariflənməsində, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynamışlar. Bundan başqa, ölkədə gedən ictimai-siyasi, iqtisadi və mədəni quruculuq prosesləri, dövlət siyasətinin mahiyyətinin xalqa çatdırılması, cəmiyyətin aktual problemlərinin müzakirəsi, günün nəbzinə uyğun verilişlər hazırlanması da televiziya və radio üçün daim prioritet istiqamətlər olmuşlar.

Müstəqillik özəl tele və radioların yaranması üçün də şərait yarandı. Onların yaranması dövrün tələbi idi.

Müstəqillik dövründə Azərbaycanda teleradio yayımı böyük ninkişaf yolu keçmiş, nəzərəçarpacaq uğurlar əldə etmişdir. Cəmiyyətdə liberal dəyərlərin, demokratikləşmə prosesinin dərinləşməsi, həmçinin fikir plüralizmi, söz və məlumat azadlığının güclənməsi media qurumlarının müstəqilliyini, sərbəst fəaliyyətini şərtləndirən mühüm amillər olmuşlar.

Özəl televiziya kanalları ölkənin teleradio məkanını da zənginləşdirmiş, müasir informasiya-kommunikasiya texnologiyalarının, son texniki nailiyyətlərin tətbiqi proqram siyasətinin müasir tələblər səviyyəsində həyata keçirilməsinə, keyfiyyətli verilişlər hazırlanmasına kömək göstərmişdir. Televiziya kanallarının texniki imkanları hədsiz dərəcədə genişlənmiş, qarşılıqlı əlaqə və kommunikasiyanın yeni formaları yaranmış, onların operativliyi yüksəlmiş, təsir dairəsi genişlənmişdir.

Teleradio ana dilinin inkişafına, milli adət-ənənələrin qorunub saxlanmasına, cəmiyyətin maddi və mənəvi dəyərlər sisteminin, ictimai şüurun və beynəlxalq aləmdə ölkə haqqında təsəvvürün formalaşmasına böyük təsir göstərir.

Teleradio –elektron informasiya vasitələri KİV sistemində ayrıca yer tutur. Hazırda televiziya informasiyalı cəmiyyətin əsas atributlarından biridir. Azərbaycanda da televiziya inkişafdadır. Milli Məclis demokratik dəyərləri əxz etməyə başlayan Azərbaycan televiziyasının inkişafına kömək məqsədilə 22 iyun 2002-ci ildə "Televiziya və radio yayımı haqqında" Qanun qəbul etdi. Qanunun 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikasında teleradio yayımı azaddır". Qanunun tələblərinə uyğun olaraq Azərbaycan Respublikası prezidentinin 5 oktyabr 2002-ci il tarixli fərmanı ilə Milli Televiziya və Radio Şurası yaradıldı. Şuranın yaradılmasında əsas məqsəd televiziya və radio yayımı sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək və fəaliyyətini tənzimləməkdir.

Yaşadığımız "informasiyalı cəmiyyət" də kütləvi informasiya vasitələrinin əhəmiyyəti son dərəcə artır. Bunu daha çox televiziyaya şamil etmək olar. Artıq televiziya, demək olar ki, hər bir ailənin ayrılmaz bir üzvünə çevrilib. Uşaqdan böyüyəcən hər kəs saatlarla onun qarşısında oturub tamaşa edir. Bu tamaşaçılar arasında daha çox uşaqları qeyd etmək istərdim ki, onların asudə vaxtları kifayət qədər çox olduğundan bu "dostlarından" heç ayrılmırlar. Televizor həm də, bir növ, valideynlərin ən yaxşı köməkçisinə çevrilib.

Bu gün Azərbaycan teleməkanında uşaq və yeniyetmələr üçün bir sıra verilişlər mövcuddur. Gəlin görək bu verilişlər uşaqlarımıza nə kimi fayda verir?

Uşaq hüquqları haqqında Konvensiyanın 17-ci maddəsində də vurğulanır ki, media uşaqların rifahının yüksəldilməsində məsuliyyət daşıyır. Bəs uşaqlar televiziyada necə təmsil olunurlar?

Uşaqların mediada işıqlandırılması uşaqlara və uşaqlığa olan münasibətlərə dərin təsir edir və yaşlıların uşaqlara qarşı davranışına mühüm nüfuz edir. Medianın təcəssüm etdirdiyi və ya hətta diqqət göstərmədiyi üsulla uşaqlar onların adından qəbul edilən qərarlara və cəmiyyətin qalan təbəqəsinin onlarla necə hesablaşdığına təsir edə bilərlər. Media tez-tez uşaqları sakit "qurbanlar" kimi təsvir edir. Uşaqlar xəbərlərdə aktual mövzuya çevrildikdə, onlar tez-tez "Afrikada aclıq çəkən uşaqlar" və "məsuliyyətsiz yeniyetmələr" olaraq stereotiplər kimi canlandırılır; uşaqların məxfiliyinə həmişə hörmət göstərilmir.

Uşaqların hüquqları, o cümlədən oynamaq, əyləncə və idman hüququna dair geniş məsələlərin çox vaxt xəbər üçün maraqlı hesab edilmədiyinə baxmayaraq, uşaq zorakılığı, cinayətə cəlb olunan uşaqlar və küçədə böyüyən uşaqlar haqqında əhvalatlar üstünlük təşkil etməyə meyl göstərir. Nəticə isə "uşaqların qurbanlar kimi" tarazlaşdırılmamış təəssüratına gətirib çıxarır.[1]

Uşaqları və yeniyetmələri özləri üçün danışmaq imkanları ilə təmin etməklə –öz ümidləri və qorxuları, nailiyyətləri və yaşlıların davranışının onların

---

[1] Uşaq Hüquqları haqqında Konvensiya.

həyatına təsiri barədə –media peşəkarları uşaqların fərdi insan varlıqları kimi hörmət göstərilməsinə layiq olduğunu ictimaiyyətə xatırlatmalıdır.

Azərbaycan teleməkanında uşaqlar, demək olar ki, çox az təmsil olunurlar. Müstəqillik dövründən sonrakı dönəmdə televiziyalarımız müəyyən inkişaf yolu keçsə də, bu sahədə hələ ki, ixtisaslaşmış kadrlar yetişməmişdir. Dünya praktikasına nəzər saldıqda, biz məhz uşaqlara məxsus televiziya kanallarının olduğunu görə bilirik. Bu cür kanallarda uşaqların özlərinə məxsus verilişləri, onların problemlərini əhatə edən və işıqlandıran, həllinə yol göstərən xüsusi proqramlar, müxtəlif cizgi filmləri və s. nümayiş etdirilir. Bu kimi verilişlərin bəziləri uşaqların özləri tərəfindən hazırlanır və ictimaiyyətə təqdim olunur.Belə bir praktikanın olması həm uşaqlar, həm də böyüklər tərəfindən yüksək qiymətləndirilir. Belə ki, bu tip proqramlarda uşaqların istəkləri və onları düşündürən bir sıra məsələlər işıqlandırılır. Uşaq dünya kanalları arasında məşhur olan "Disney Channel"-in rus dilli versiyasında nümayiş olunan "Malenkiy super şou" adlı proqramı misal göstərmək olar ki, burada azyaşlı uşaqları maraqlandıran suallara cavab tapılır, həmçinin yeni dövriyyəyə buraxılmış film və cizgi filmləri barədə məlumatlar verilir.

Bizimsə nəinki belə bir kanalımız mövcuddur, həmçinin uşaqlara həsr olunmuş verilişləri barmaqla saymaq olar. Məsələn: AzTV "Sehrli güzgü", İTV "Biri varmış, biri yoxmuş", ATV "Bapbalaca" və s. Bu tipli verilişlərdə isə uşaqların maraq dairəsini əhatə edən, onların dünyagörüşünə təsir edən məqamlara rast gəlmək mümkün deyil. Hətta televiziyalarda göstərilən cizgi filmləri belə bizim adət-ənənələrimizdən çox uzaqdır. Son illərdə yerli cizgi filmləri istehsal olunmadığı üçün televiziya kanalları uşaqların milli ruhda böyüməsinə heç də müsbət təsir göstərməyən xarici filmlər nümayiş etdirirlər. Bu da əvvəldə qeyd etdiyim kimi, televiziyanın şüuraltı təsir etmə imkanlarını artırır.

Son illərdə televiziyalarda maarifləndirici filmlər, verilişlərlə bərabər müxtəlif intellektual oyunlar, yarışmalar hazırlanır ki, bu da birbaşa yeni nəslin dünyagörüşünün formalaşmasında əhəmiyyətli yer tutur.

Mədəni təbliğat insan fəaliyyətinin bütün sahələrindəki mütərəqqi istiqamətləri kütlələrə çatdırmaqla maarifçilik funksiyasını yerinə yetirir. Aydın Dadaşovun təbirincə desək, “Böyük mənada bəşəriyyətin ölümlə mübarizəsi sayılan mütərəqqi mənəvi dəyərləri önə çəkir”[1]. Mənəvi dəyərlərə xidmət edən mədəni təbliğat isə cəmiyyətin bütün təbəqələrini əhatə edir. Ziyalıların mənəvi tərbiyəsindən söz açaraq Ə. Bağırovun belə bir fikrini göstərək ki: “Kütlələrin və həmçinin elmi-texniki sahə ziyalılarının mədəni tərbiyəsindəki boşluqları doldurmaq televiziyanın borcudur”[2].

İctimai məsuliyyəti üzərinə götürən televiziya tədris verilişlərində açıq, informasiya və bədii verilişlərdə isə dolayısı ilə mədəni tərbiyə funksiyasını yerinə yetirir. Kütləvi informasiya vasitələri arasında xüsusi yer tutan televiziyanın da mədəni təbliğata xidməti onun mövcud olduğu sistemin ideoloji tələbinə bağlıdır. Televiziya insanlara bir-biri ilə və cəmiyyətlə qarşılıqlı yaşayış qaydalarını təbliğ edərək, cəmiyyət subyekti-şəxsiyyətin biçimləşməsinə xidmət edir.

Televiziyanın maarifləndirici funksiyasından istifadə etməklə uşaqlar və yeniyetmələr üçün maraqlı və intellektual verilişlər hazırlamaqla onları gələcəyin parlaq nümunələri kimi yetişdirməyə sövq etmək olar. Uşaqlar və yeniyetmələr üçün hazırlanan müxtəlif səpkili maarifləndirici verilişlərin mövzu arealı istər təbiət, kosmik aləm, sənət, heyvanlar və bitki aləmi ilə bitməməli, həmçinin tarixi, coğrafi-tarixi anlamda məzmun daşımalıdır.

Uşaq və yeniyetmələrdə, gənc nəsildə elmə və təhsilə maraq oyada bilən, onların intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edən verilişlərin hazırlanması zəruridir. Yeni nəslin mənəvi tərbiyəsində maarifçi teleoyunların əhəmiyyəti danılmazdır. Bu sahədə digər ölkələrin aparıcı kanallarının təcrübəsindən bəhrələnmək olar. Məsələn: Rusiyanın 1-ci kanalının “Umnitsı i umniki”, STS kanalının “Samıy umnıy” verilişləri kifayət qədər populyar və geniş tamaşaçı auditoriyası qazanmış proqramlardır.

---

[1] Dadaşov A. KİV-də relkam və marketinq problemləri. –B., 2001

[2] Baqirov E. Nekotorıye osobennosti razvitiya TV. TV vçera, seqodnya, zavtra. – M., 1984.

“Umnitsı i umniki” –yeniyetmələr üçün televiktorinadır. Bu veriliş MQİMO-ya daxil olmaq üçün təşkil olunmuş müsabiqənin televiziya versiyasıdır. Proqramın aparıcısı Vladimir Vyazemskidir. İlk dəfə bu veriliş Rusiyanın RTR kanalında 18 sentyabr 1991-ci ildə efirə çıxmışdır. Hal-hazırda isə Rusiyanın 1-ci kanalında şənbə günü saat 08:50-də (rus vaxtilə) yayımlanır. Verilişdə suallar dünya tarixi və mədəniyyəti mövzusundan verilir və hər bir veriliş müəyyən tarixi bir dövrə və ya dövlətə həsr olunur.

Bundan başqa Rusiyanın STS kanalında uşaqların zehni inkişafına təsir edən

“Qalileo”, oyun məqsədilə əyləncə xarakterli “Kto umneye pyati klassnika?”, 1-ci kanalda “Sokrovişe natsii” –intellektual verilişləri efirə çıxır.

Azərbaycan teleməkanında da bu tipli verilişlərə rast gəlmək mümkündür. Məsələn: İTV “Virtual rinq”, ANS “Ağıl dəryası”, ATV “LG Bilik Akademiyası” və s. Bu cür verilişlər vasitəsilə uşaq, yeniyetmə və gənclərimizin həm bilik səviyyəsini artırmaq, həm də onlarda məntiqi düşüncə qabiliyyətini yüksəltmək olar.

ANS telekanalında yayımlanan “Ağıl dəryası” proqramında əsasən onbirincilər iştirak edir. Verilişin məktəbli şagirdlər üçün müsbət cəhəti onlarda intellektual səviyyənin artmasıdır, həmçinin yaradıcı heyət iştirakçıları həvəsləndirmək üçün üç təklif irəli sürürlər: ən son mərhələdə qalib gələnlərdən biri imtahansız dövlət universitetlərindən birində, digəri Şimali Kiprin Yaxın Doğu Universitəsi ilə müqavilə əsasında orada təhsil alacaq və sonuncusu isə buraxılış imtahanını vermədən attestat alacaq. Verilişdə müxtəlif mövzulara aid suallar verilir və bu fənn bölgüsü əsasında aparılır.

“Virtual rinq” intellektual televiktorinasında yaşından, sosial mövqeyindən asılı olmayaraq biliyinə güvənən hər bir kəs iştirak edə bilər. Televiktorinada üç üzvdən ibarət beş komanda iştirak edir. Komandalar orta və ali təhsil müəssisələrinin şagird və tələbələrindən, AMEA-nın elmi-tədqiqat institutlarının, dövlət, biznes və qeyri-hökumət təşkilatlarının əməkdaşlarından təşkil oluna bilər.

Yarışma beş turdan ibarətdir. Hər turda iştirakçılara üç sual verilir. Düzgün cavabın sayına görə nəticələr müəyyən olunur. Üç turda sonra finala çıxan iki komanda müəyyən olunur. Əgər eyni xal toplamış komandaların sayı ikidən çox olarsa, düzgün cavabı tapmaq üçün kim az vaxt sərf edibsə o da qalib sayılır. Deməli, bilik və məntiqlə yanaşı burada həm də çeviklik tələb olunur.

Yeniyetmə və gənclərə həsr olunmuş verilişlər yalnız intellektual tipli yarışlarla məhdudlaşdırılmamalı, həm də onların problemləri, qayğıları, arzu və istəklərini özündə ehtiva edən verilişlərə də geniş yer ayrılmalıdır.

Əgər veriliş gəncləri hədəf tutursa, onların intellekt səviyyəsini unutmamalı, gənclərə özünüidarə forması aşılanmalıdır. İlk növbədə bu cür verilişlərdə nəzərə alınmalıdır ki, gənclərin tələbatı, marağı nəyədir? Əlbəttə, biz də, cəmiyyət də istərdi ki, xüsusilə gənclərin tələbatına, dünyagörüşünə uyğun layihələr hazırlansın. İdarəetmə mədəniyyəti olmadan layihə rəhbəri bilməyəcək ki, müasir gənclər nə düşünür. İlk növbədə layihəni hazırlayan insan düşünməlidir ki, bunun gənclərə hansı rolu olacaq, hansı əxlaqi məsələlər müzakirə obyektinə çevriləcək. Bunun üçün televiziyalar müxtəlif sosial sorğular keçirməlidirlər.

Maarifçilik və tədris verilişləri cəmiyyətin formalaşmasında, xüsusən də gənc nəslin tərbiyəsində başlıca rol oynadığından bunlar zövqlü, sənətkarlıqla hazırlanmalıdır. Yalnız bu halda istənilən effekti əldə etmək olar. Məhz onda maarifçilik özünün müsbət təsiri ilə yeni nəslin mənəvi qalxınmasına xidmət edə bilər. Demokratiya mühiti mədəniyyətin hər hansı formada asılılığını rədd etsə də, bazar iqtisadiyyatı müstəqil televiziya və radioları belə tədris funksiyasının sosial sifarişini yerinə yetirməyə vadar edir.

Maarifçilik televiziyanın başlıca funksiyası kimi bütünlüklə yaradıcı və informasiya mühitinin aparıcı ünsürü olaraq özünü bu və ya digər tərzdə əks etdirməlidir. Savadlı, hazırlıqlı cəmiyyət görmək arzusundayıqsa, maarifçilik işi günümüzün böyük reallığı kimi hər zaman özünün böyük təsir qüvvəsi ilə şüurlarda dəyişikliklər etməsi üçün zəmin yaratmalıyıq. Xüsusən indi cəmiyyətin dinamik və sıçrayışlı inkişaf dönəmində mədəni-maarif müəssisələrinə

maraq öldüyü və əhalinin daha çox templi və interaktiv vasitələrə meyl etməsini bilərəkdən internet aləmi, TV və radio bu inam, həvəsdən məharətlə istifadə edərək dövlətçilik, vətənçilik prinsiplərini təbliğ edib, Vətənin sərhədləri, özünü, dövləti, onun rəmzləri: bayrağı, gerbi, himnini sevdirməli, orduya qarşı tükənməz sevgi, qürur duyğularını aşılamalıdır. Maarifçilik təkcə dünyəvi və elmi-kütləvi informasiyalarla əhalini silahlandırmaqla bitməməli, onun hüquqlarını, vəzifələrini anlaşdırdığı kimi, Vətən və onun dəyərlərini də geniş tərzdə təbliğ etməlidir.

Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək, böyük gələcəyimiz naminə ən mühüm vəzifə kimi təhsilimizin və mədəniyyətimizin qarşısında durur. Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan təbliğatın uğurlu və təsirli olmasında televiziyanın yeri və xidməti əvəzolunmazdır. Televiziya ilk növbədə mənəvi tərbiyə ocağı kimi, bədii vasitələrlə, sənətkarlıqla, xüsusi incəliklə bu müqəddəs amalları aşımalı və sevdirməlidir. Həyat gerçəkliyinin bədii inikası elə bir səviyyədə olmalıdır ki, gənc təkcə təbliğatın deyil, həmçinin estetik cəhətdən zəngin, yüksək istedadlı sənətkarlıqla tanış olsun. Bu cəhət televiziya sənətçilərinin məsuliyyətini birə-iki artırır, onların qarşısında yeni vəzifələr qoyur. Hər bir sənətkar, ziyalı özünün cəmiyyətdə daşıdığı funksiyasını düzgün qiymətləndirməli və bu məsuliyyəti şərəflə icra etməlidir.

Azərbaycan teleməkanında müharibə və sonrakı atəşkəs dönəmində vətənpərlik proqramlarını ərsəyə gətirmək bir mühüm vəzifə kimi ortaya çıxdı. Bu, bilavasitə özünü ölkənin ictimai-siyasi və ideoloji mühitindən irəli gəlirdi. Azərbaycan vətəndaşını, xüsusən də gənclərin hərbi biliklərlə silahlandırılması, onlarda ərazi bütövlüyünün qorunması, vətən sevgisi kimi ülvi hisslərin aşılanması olduqca böyük əhəmiyyət kəsb edirdi.

Ölkəmizin ilk müstəqil televiziya kanalı olan ANS-də hər həftənin bazar günü efirə gedən "Marş" proqramı gənclərin tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə onu deyək ki, proqramın vaxtı olduqca düzgün müəyyənləşdirilib. İstirahət gününün günorta saatı gənclərin baxımlı dövrüdür. Həftə içi dərsdə və ya işdə olan gənclər istirahət gününün birinci yarısı evdə olmağa üstünlük verirlər. Çünki adətən əyləncələr axşam vaxtı təşkil olunur. Bu fakt istər sosioloqlar, istərsə də asudə vaxtın təşkili istiqamətində araşdırma aparan mütəxəssislər tərəfindən təsdiq olunur. Kulturoloq İlqar Hüseynovun fikrincə "Aparılan bu sosioloji tədqiqat zamanı insanların daha çox öz evlərində və ya evlərinə yaxın bölgələrdə keçirmələri aşkar edilmişdir. Lakin sərbəst vaxtın mədəni asudə vaxt mərkəzlərində keçirilməsinin dərəcəsi heç vaxt aşağı düşməmişdir"[1]. İstirahət gününün birinci yarısında əsasən yeniyetmələr və gənclər üçün nəzərdə tutulmuş verilişin başlıca məqsədi vətəndaşı əsgər kimi tərbiyə etmək üçün ibtidai hərbi biliklərə yiyələndirmək, silahlar, döyüş texnikası barədə ilkin, vacib informasiyanı vermək, dinc əhalinin özünümüdafiəsi işində lazımi bilgilərlə silahlandırmaq, həmçinin gənclərdə orduya məhəbbəti aşılamaq, onların vətənpərvərlik hissini inkişaf etdirməkdir.

Azərbaycan televiziyalarında vətənpərvərlik mövzusunda bir sıra verilişlər mövcuddur. AzTV "Hərb tariximizdən", "Aypara" və "Əsgər anı", İTV "Salam əsgər", Lider "Lider əsgər" kimi verilişlər milli vətənpərvərlik mövzusunu yalnız ordu haqqında verilişlərlə məhdudlaşdırırlar.

Halbuki, vətənpərvərlik vətənə sevgi, doğma yurdun inkişafı, çiçəklənməsi, vətənlə bağlı əsrlərlə formalaşmış ideallarıın qorunması və təbliği və s. məsələləri əhatə edən geniş mövzudur. Televiziya kanallarının bu sahə ilə bağlı maraqlı, tamaşaçının diqqətini cəlb edə biləcək verilişlər hazırlamasına böyük ehtiyac tələb olunur. Bunurla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Dağlıq Qarabağın tarixi, burada yetişib boya-başa çatan görkəmli dövlət, mədəniyyət və incəsənət xadimləri haqqında yüksək səviyyəli verilişlərin

---

[1] Hüseynov İ. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. –B., 2002

təşkili ictimaiyyət tərəfindən maraqla qarşılana bilər, Vətənə, torpağa bağlılığın artırılmasına kömək edər, insanlarda vətənpərvərlik ruhunu gücləndirər.

Bu gün Azərbaycan teleməkanında azyaşlı uşaqlar üçün bir sıra verilişlər mövcuddur. Bu verilişlərdə uşaqların həm intellekt səviyyəsinə, həm də dünyagörüşünü əks etdirən bir sıra məsələlərə toxunulur, onların müəyyən mövzuya dair fikirləri öyrənilir. Bu tipli verilişlərə "Lider" televiziyasında yayımlanan "Mən uşaq olsam da", ANS kanalında efirə gedən "Uşaqdan böyüyə – İrəmlə", AzTV-də "Siz çoxbilmişlərdənsinizmi" verilişlərini misal göstərə bilərik.

İstərdim bu proqramlar haqqında bir az geniş məlumat verim və onları bir-biri ilə müqayisə edim.İlk öncə ANS telekanalında yayımlanan "Uşaqdan böyüyə" verilişindən başlamaq istərdim. Bu veriliş hər həftənin şənbə günü axşam saat 20:00-da efirə gedir. Verilişin aparıcısı İrəm xanımdır. Bu proqramda azyaşlı uşaqlar iştirak edir və onlara müxtəlif mövzulara aid suallar verilir. Burada ən çox bəyəndiyim xüsusiyyət İrəm xanımın uşaqlarla olan dioloqudur. Belə ki, o, sualı birbaşa deyil, dolayı yolla uşağa yönləndirməyi bacarır. Suallar yaş etibarı ilə qismən çətin və düşündürücüdür. Burada həm elmi, həm də ictimaiyyətlə bağlı olan suallara rast gəlmək olur. Proqramda uşaqlarla yanaşı böyüklər də iştirak edir və onlar seçdikləri uşaqların cavablarına əsasən müəyyən balla qiymətləndirilirlər. Bu veriliş uşaqlara düşünməyi və öz fikirlərini ifadə etməyi öyrədir. Bu proyekt Türkiyə kanallarından birində Bergüzar Korelin sunuculuğu ilə efirə gedirdi. Çox böyük əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan televiziyalarında verilən uşaq proqramları arasında daha çox izlənilən verilişlərdən biri məhz bu verilişdir. Bu veriliş qısa bir zamanda həm böyüklərin, həm də uşaqların sevimlisinə çevrilmişdir.

Digər bu tipli veriliş "Lider"in efirində yayımlanan "Mən uşaq olsam da" proqramıdır. Burada da əsas qəhrəmanlar olan azyaşlı uşaqlara müxtəlif suallar verilir. Lakin format baxımından bu proqram bir az geridə qalır. Burada daha

çox uşaq dünyası ilə bağlı, yəni uşaqlar daha çox kimə bənzəmək istərlər, onların gündəlik yaşam tərzi və s. barədə suallar verilir.

Azərbaycan dövlət televiziyasında isə balaca məktəblilərin iştirakı ilə "Siz çoxbilmişlərdənsinizmi" verilişi efirə gedirdi. Bu proqramda uşaqlar arasında sual yarışı keçirilir və daha çox düzgün cavab verən iştirakçı tərifnamə ilə qiymətləndirilirdi.

Bu verilişlərdən başqa Azərbaycan Dövlət Televiziyasında –"Bizim sinif", "Dəcəllər", "Qlobus" – "Tusi", "Lider" – "Ala-bula", "Xəzər" – "Bələdçi uşaqlar", ANS –"Bala dili", İTV –"Uşaq şəhərciyi" adlı verilişlərin adlarını çəkmək olar. İTV-nin efirində yayımlanan "Uşaqların şəhərciyi"ni bağça yaşlı uşaqlar, kiçik yaşlı məktəblilər üçün hazırlanan ən yaxşı veriliş kimi qiymətləndirmək olar. Bu verilişdə uşaqlar əylənir və öyrənir. Aparıcı-aktyor öz işinin öhdəsindən ustalıqla gəlir, kütləvilik təmin olunur. Ən əsası isə bu verilişdə sərbəstlik və baxımlı studiya dizaynı var.

"Uşaqların şəhəri"ndən sonra ANS-in efir ömrü daha uzun olan "Bala dili" si gəlir. Hazırlamaq, tamaşaçıya çatdırmaq baxımından nisbətən asan başa gəlsə də, bəzi hallarda məna dəyərinə görə "Uşaqların şəhəri" ni üstələyir. Burada öyrətmək, maarifləndirmə istirahət və əyləncəni üstələyir. Örnək gətirdiyimiz verilişlər arasında dil fərqi də özünü göstərir. "Uşaq şəhərciyi" danışıq dilinə, "Bala dili" ədəbi dilə söykənir.

Hələ 1990-cı illərdə Azərbaycan efirində öz damğasını vurmuş bir sıra uşaq və yeniyetmə proqramları mövcud idi. Bunlara Ofelya Sənaninin "Cırtdan", Ələkbər Hüseynovun "Hər birimiz bir çiçək" və "Yeddi –on yeddi" proqramlarını misal göstərə bilərik ki, bu proqramların keyfiyyəti bugünkilərə nisbətdə daha yüksək və baxımlı idi.

Belə bir fikrə gəlmək olar ki, uşaq verilişlərinin hazırlanmasında psixoloqların, pedaqoqların köməyindən yararlanmaq gərəkdir. Çünki uşaq psixilogiyasını bilmədən, onun qavrama və icra bacarığına bələd olmadan istənilən səviyyədə veriliş hazırlamaq mümkün deyil. Bu baxımdan televiziyaların uşaq

verilişləri redaksiyalarında jurnalistlərdən başqa psixoloqlar da çalışmalıdır. Hər yaş qrupunun marağında olan ayrıca verilişlərə tələbat var. Hələlik az-çox əhatə olunan yaş qrupu-kiçik yaşlı uşaqlar və məktəblilərdir.

Əslində, yaş qrupları üzrə tədqiqat aparılsa, ən çox dərk etmək, yaddaşa yazmaq bacarığı məhz orta yaş qrupu uşaqlardadır, yəni 10-15 yaşlılar qrupu arasında. Məhz bu yaşda uşaqların tam formalaşmayan düşüncəsinə təsir etmək, onları düzgün istiqamələndirmək, doğru olan tərəfə yönəltmək daha asandır. Orta yaşlı uşaqların iştirakı ilə veriliş hazırlamaq da yüngül başa gəlir. Çünki onlar kiçiklərdən anlaqlı, böyüklərdən daha sadədirlər. Bu baxımdan İTV öndə gedir. İTV-nin efirində yayımlanan “İmtahan” verilişinin Azərbaycanda analoqu yoxdur. Uğurlu, bəyənilən layihədir.

Müşahidələr göstərir ki, yaşından asılı olmayaraq müxtəlif tamaşaçı auditoriyası “İmtahan”a baxır və zövq alır. Bu veriliş bir zamanların “Böyüklər üçün cizgi filmi”ni xatırladır. Bu telelayihədə böyüklər məktəblilərin sualları əsasında rəmzi olaraq imtahana çəkilirlər. Bu verilişin məqsədi dövlət məmurları, siyasətçilər, millət vəkilləri, səfirlər, xalq artistləri, ümumiyyətlə, məşhur şəxsləri məktəblilərə yaxınlaşdırmaq, onlara uşaqları unutmamağı xatırlatmaqdır. Qonaq sonda ən maraqlı sual sahibini seçir və sualın müəllifinə oxuduğu məktəbində, sinfindəcə hədiyyə təqdim edir.

Veriliş ayda iki dəfə, cümə günləri saat 22:20-də efirdə olur.

Dünyanın bir sıra dövlətlərində uşaqların özlərinə məxsus televiziya kanalları mövcuddur. Bu kanallarda onların öz istehsalı olan verilişlər, müxtəlif seriallar və azyaşlı uşaqlar üçün cizgi filmləri yayımlanır. Lakin bu, o demək deyil ki, bu ölkələrdə böyüklər üçün nəzərdə tutulmuş kanallarda uşaq proqramlarına yer ayrılmır. Məsələn, ABŞ-da bu kanalların kəmiyyəti belədir –onların sadə sıralamasını təşkil etmək çətindir. Elə telekompaniyalar mövcuddur ki, onlar yalnız uşaqlar üçün çalışır, həmçinin böyük kanalları da uşaqlara həsr olunmuş proyektlər hazırlayır (*ABCKids, PBCKids, DiscoveryKids* və s. ).

Amerikada uşaqlar üçün olan televiziya özünəməxsus başlanğıc xüsusiyyətlərini qoruyub saxlayır. ABŞ-da bir çox uşaq kanallarında yalnız  əyləncəli uşaq proqramları mövcuddur ki, (Bu, adətən, kabel şəbəkələri olan *Nickelodeon, Cartoon Network, 4KidsTV*-dir) burada reklamlar tez-tez şouların adları ilə birbaşa bağlı olur. Məsələn, Nickelodeon kanalında məşhur serial olan “iCarli Apple” firmasının məhsullarını həm adında ehtiva edir, həm də serial texniki yeniliklərin fəal iştirakçısı olan gənclər haqqında danışır[1].

Azərbaycan televiziya məkanında təqdim edilən uşaq verilişlərinin bir çoxunun yalnız adı uşaqlarla bağlıdır, özünün isə uşaq dünyası, uşaq düşüncəsi ilə hüç bir əlaqəsi yoxdur. Belə ki, bu tip verilişlərdə televiziya uşaqların mənafeyi mövqeyindən deyil, kommersiya məqsədi güdür. Bu cür verilişlərə ATV kanalında yayımlanan “Bapbalaca” və bir zamanlar “Space”-in efirində böyük tamaşaçı reytinqi qazanmış “Sən bir nəğmə” adlı verilişləri misal göstərə bilərik. “Bapbalaca” verilişində 5-6 uşaq tanınmış müğənnilərin evlərinə aparılır və orada günün müəyyən bir hissəsini orada keçirirlər. Burada əsas uşaqlar deyil, müğənnilər ön planda durur, onların evləri, maddi vəziyyətləri reklam olunur.

“Sən bir nəğmə” də uşaq və yeniyetmələrin istedadı nümayiş etdirilir. Bu baxımdan, veriliş reytinq qazansa da, daha çox reklama yer verilirdi.

Maarifləndirmə xarakterli proqramlarda biznes maraqları üstünlük təşkil etməməli, daha çox maraqlı verilişlərlə tamaşaçı auditoriyasının rəğbətinin qazanılması qarşıya məqsəd qoyulmalıdır. Televiziya təkcə informasiya vermək və yaxud əyləndirməklə işini bitmiş hesab etməməlidir. O, həmçinin tamaşaçısını düşündürməyi, isitqamətləndirməyi bacarmalıdır.

Televiziya cəmiyyətin bir növ güzgüsüdür. Belə ki, bizim həyatımızda baş verən hər bir hadisə (istər pis, istərsə də yaxşı) öz əksini mavi ekranlarda tapır. Burada televiziyanın mümkünlüyünün digər bir tərəfinə də diqqət yetirmək lazımdır-bu, uşaq və yeniyetmələrin istehlakı üçün nəzərdə tutulmayan və hətta

[1] Ожерельева А. Обзор: Детское телевидение в России и США // Интернет-журнал “ТВ -дайджест” (www.tv-digest.ru) от 22.10.2009

qadağan olunan informasiyaların nəzarətsizliyidir. Zorakılıq, seksual davranış, sağlam olmayan həyat tərzi, ədəbsizlik, anti-ictimai həyat tərzi olan bir çox qəhrəmanların həyatı müasir gəncləri, ümumiyyətlə, dəhşətə gətirir. Düzgün intellektual qidalanma əldə etmək imkanı olmadığından uşaq və yeniyetmələr əllərinə keçdiyi ilk şeyləri istehlak edirlər. Bundan başqa, bir çox proqramlar uşaq mövqeyini kəs etdirirmiş kimi, tez-tez gizli, mətnaltı seksuallığı əks etdirir, açıqca zorakılıq və ictimai nöqteyi nəzərdən qəbul olunan həyat tərzinə etinasızlıq səhnələri nümayiş etdirilir. Qeyd edək ki, bir çox uşaqlar üçün televiziya böyük həyata başlanğıcın əsas yolgöstəricisi kimi başlıca olaraq informasiya mənbəyidir. Onlar məhz televiziyadan bu və ya digər situasiyada özlərini necə aparmağı öyrənir, televiziya qəhrəmanları onlara öz hərəkətlərinin stereotipini, əxlaqi normalarını və prinsiplərini zorla qəbul etdirirlər. Burada demək lazımdır ki, televiziya qəhrəmanlarının öyrətdiyi normalar onlara müəllimləri və valideynlərinin aşıladığı normadan nə qədər uzaqdır.

Azərbaycan televiziyasının inkişafına dəstək məqsədilə 2002-ci il 25 iyun tarixində "TV və Radio Yayımı Haqqında" Azərbaycan Respublikasını Qanunu qəbul edilmişdir və bu məsələ ilə bağlı Qanunda uşaq və yetkinlik yaşına çatmayanlar barədə maddə qəbul edilmişdir:

**Maddə 33:** Uşaqların və yetkinlik yaşına çatmayanların qorunması.

**33.1.** Müvafiq dövlət orqanı uşaqların və yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən və kodsuz yayımlanan, o cümlədən erotikanı və qəddarlığı əks etdirən proqramlar üçün xüsusi qaydalar müəyyənləşdirir.

**33.2.** Göstərilmə vaxtı məhdudlaşdırılmış proqramların anonsunda, eləcə də yayımından əvvəl bu barədə mütləq məlumat verilməlidir.

**33.3.** Göstərilmə vaxtı məhdudlaşdırılmış proqramların yayımı uşaqların və yetkinlik yaşına çatmayanların baxmasına qadağa qoyulduğunu bildirən xüsusi simvollar, yazılar, yaxud proqramın xüsusiyyəti barədə digər bir xəbərdar edici nişanlarla müşayiət olunmalıdır.

Azərbaycan televiziyalarında ilk dəfə bu simvollaradan ANS-in efir məkanında istifadə olunmağa başlandı. ANS TV-nin yayımın qrafik tərtibatı departamentinin rəisi Kamil Kərimovun sözləri ilə desək, yeniliyi şərti olaraq "ağıllı işarələr" adlandırmaq olar. Əslində bu işarələrin məqsədi efirə veriləcək verilişbə filmlərin əxlaqi və psixoloji mahiyyəti barədə tamaşaçılara xəbərdarlıq etməkdir. Ölkənin efir məkanında ilk dəfə tətbiq olunan bu sistem valideynlərə və ümumiyyətlə, cəmiyyətə uşaqları və gəncləri televiziya verilişlərinin mümkün zərərli təsirlərindən qorumaq üçün bir siqnaldır. Belə ki, bundan sonra hər bir verilişdən əvvəl efirə xüsusi ağıllı işarələr veriləcək ki, bu da efir məhsulunun hansı mövzuda olduğunu bildirəcək.

Televiziyanın insanların həyatına getdikcə daha dərindən nüfuz etməsi, uşaq və yeniyetmələrin tərbiyəsinə alternativ vasitə kimi daxil olması ANS-i qabaqcıl Qərb dövlətlərində artıq uğurla sınaqdan çıxarılan bu təcrübəyə əl atmağa vadar edib. İndi artıq valideynlər hansı işarənin qadağan, hansı işarənin icazə verdiyini özləri müəyyənləşdirəcək.

K.Kərimovun sözlərinə görə, hazırda bütün mövzuları və əhalini məlumatlandıra biləcək 7 işarə hazırlanıb: "Bunlar 7, 13, 18 yaşdan yuxarı, bundan başqa ailə, mənfi davranışlar, şiddət və qorxu və sonda açıq-saçıqlıqdır. Bu işarələr eyni zamanda lazım olan yerlərdə birləşərək əlavə işarələr də yaratmış olurlar".

Teleradio yayımı haqqında qanunda uşaqlar və reklam məsələsinə də toxunulmuşdur.

**Maddə 35.** Reklamın yayılması.

**35.14.** Televiziya reklamları uşaqların və yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına zərərli təsir göstərməməlidir. Bunun üçün həmin reklamlarda aşağıdakı tələblərə əməl olunmalıdır:

**35.14.1.** Uşaqlara və yetkinlik yaşına çatmayanlara ünvanlanan, yaxud onların iştirakı ilə yayımlanan reklamlarda uşaqların maraqlarına ciddi zərbə vuran elementlərdən istifadə olunmamalı;

**35.14.2**. Tutarlı səbəblər olmadan uşaqlar və yetkinlik yaşına çatmayanlar qorxulu vəziyyətlərdə göstərilməməlidir.

## *III FƏSİL*

## UŞAQ TELEVIZIYALARININ İCTİMAİ CAVABDEHLİYİ

Uşaq televiziyasının ictimai cavabdehliyindən danışmaq üçün əvvəlcə məsələnin əhəmiyyətini başa düşmək lazımdır. Sağlam düşüncəyə görə, cavabdehlik o zaman və orada yaranır ki, ya könüllü olaraq üzərinə götürülmüş, ya da razılıq nəticəsində müəyyən edilmiş öhdəliklər mövcud olsun. Biz televiziyanın ictimai cavabdehliyindən danışarkən güman edirik ki, televiziya strukturları dövlət əmlakının-texniki efir tezliyinin istifadəsi mümkünlüyü qarşılığında cəmiyyət qarşısında bir sıra öhdəliklər üzərinə götürmüşlər.

Formal nöqteyi-nəzərdən dövlət orqanları tərəfindən verilişin göstərilməsi mümkünlüyünə verilən lisenziya telekompaniya və cəmiyyət arasındakı danışığın keyfiyyəti kimi çıxış edir. İndiki lisenziyalı öhdəlik ümumi verilişin həcminə görə uşaq verilişlərinin faizini nizama salır. Bu gün telekanallar proqram siyasətinin tərtib edilməsində siyasi məqsədəuyğunluluq və korporativ maraqları əldə rəhbər tutaraq müstəqil qərarlar qəbul edirlər. Hələ ki, yalnız şüurlu vətəndaş mövqeyinə, jurnalistlərin vicdanlılığına və onların rəhbərliyinə ümid etmək qalır.

Sovet dövründə uşaq verilişləri maarifləndirici-tərbiyələndirici sistemlə bir-birinə üzvi surətdə bağlı idi. Onun elementləri səmərəli təsir edirdi və vahid bir məqsədin yerinə yetirilməsi-gənc sovet vətəndaşının tərbiyələndirilməsi üçün hər hissə öz tapşırığını yerinə yetirirdi.

Bu gün idarələrarası əlaqələr pozulmuş, uşaq verilişləri isə cəmiyyətdən və onun institutlarından ayrı mövcuddur. Əgər başda şəxsi, korporativ maraqlar deyil, gənc Azərbaycan vətəndaşlarının tərbiyəsi dayanırsa, ölkədə uşaq verilişlərinə sistemli yanaşmanın bərpa olunması lazımdır.

A.Q.Koqatkonun fikrincə, uşaq televiziyalarının ictimai cavabdehlik problemlərinə iki aspektdən baxmaq lazımdır[1]:

Birincisi, bu uşaq verilişlərinin efir məkanında olmasını bildirir. Belə ki, bizi lisenziya sahiblərinin verilişin həcminə görə öz öhdəçiliyinin yerinə yetirməsi maraqlandırır.

İkincisi, gənc auditoriya üçün proqramın mahiyyəti barədə danışmaq lazımdır: əzlaqi dəyərlərin, nümunələrin və modellərin ekranda təbliğ olunması.

Uşaq televiziyalarının cavabdehliyindən danışarkən, biz lisenziya öhdəliyinin yerinə yetirilməsi mexanizminə nəzarəti də yaddan çıxarmamalıyıq. İndiki zamanda kütləvi kommunikasiya sahəsində qanunvericiliyin yerinə yetirilməsi və mədəni irsin qorunmasına nəzarətə Milli Teleradio Şurası cavab verir. Kifayət qədər problemlər mövcuddur ki, onlara bu cür təsirlər lazımdır və inzibati vəsaiti uşaq məsələlərinə sərf etmək onların düşüncə nöqteyi-nəzərindən ağılsızlıqdır.

Müzakirə olunan mövzunun ikinci tərəfi uşaq və yeniyetmələr üçün televerilişlərin məzmunluluq və mənalılıq baxımından zənginləşdirilməsidir.

Gəlin fikirləşək ki, telekanallar uşaq verilişləri ilə bağlı öhdəliklərini yerinə yetirirlər, lakin efirdə yalnız xarici istehsal olan verilişlər yayımlanır. Görünür ki, xarici teleməhsulların yerli televiziyalarda məhdudlaşdırılması məsələyə qanunvericilərin qarışmasını tələb edir. Çünki uşaq verilişlərinin yönləndirilməsi-

---

[1] Когатько А.Г. Социальная ответственность детского телевидения. Развивающее телевидение для детей. // Официальный сайт депутата Гос. Думы Крутова А.Н. (www.kroutov.ru), 2005.

nin stimullaşdırılması məqsədilə reklam və sponsor probleminin nizama salınması onların səlahiyyətindədir.

Eyni zamanda qadağanedici tədbirlərlə uşaq proqramları hazırlamaq qabiliyyəti olan yerli istehsalçılar arasında rəqabəti stimullaşdırmaq lazımdır.

Müasir uşaq verilişlərinin əsas məsələsi meyarların təkmilləşdirilməsi ilə verilişlərin məzmununa nəzarətin həyata keçirilməsinin mümkünlüyüdür. Burada biz yenidən uşaq verilişləri üçün tək bir konsepsiyanın olmaması ilə qarşılaşırıq, harada ki, məqsədlər qısaca və dürüst ifadə edilməli, prinsiplərin, fəaliyyətin yönləndirilməsi əsaslarının təyin edilməsi ilə müasir uşaq verilişləri hazırlanmalıdır.

Bir çoxlarına elə gəlir ki, müasir uşaq televiziyası və ya qəhrəmanın surəti zamanın tələbi ilə uyğunlaşdırılır. Lakin bu mövzunun müzakirəsi zamanı bir sıra ziddiyyətlər meydana çıxır. Bundan başqa, kiçik tamaşaçılar üçün olan verilişin keyfiyyətinin qiymətləndirilməsi ilə əlaqədar Ekspertlər Şurasının yaradılmasının lazım olduğunu xatırlatmaq lazımdır, hansı ki, bu auditoriyanın yaşına uyğun olaraq verilişin keyfiyyətinə, məqsədinə, məzmununa və uyğunluğuna nəzarət etsin. Bu ideya artıq çoxdandır ki, professional cəmiyyətdə müzakirə olunur. Bu mənada Avropa ölkələrinin təcrübəsindən yararlanmaq lazımdır.

Bu gün milli eyniyyətin, informasiya təhlükəsizliyinin qorunması haqqında tez-tez danışırlar. Qaldırılmış sual vaxtında və əsaslandırılmış bir məsələdir. Bu gün uşaq verilişlərində yerli mədəniyyətin təcrübələrindən bəhrələnən verilişlərin boşluğu hiss olunmaqdadır.

Məlumdur ki, yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün dövlət orqanlarında, o cümlədən cəmiyyətdə KİV haqqındakı diskussiyaları davam etdirmək lazımdır. Bizim fikrimizcə, müzakirənin mərkəzində ölkədə uşaq verilişlərinin fəlakətli vəziyyəti, gənc tamaşaçılar üçün televerilişə sistamli girişin olmaması, müasir teleekrandan göndərilən informasiyaların təhlükəsi, Azərbaycan vətəndaşı olan gənc nəslin mənəvi korlanması dayanmalıdır.

Hökumətin inkişafının müəyyən bir mərhələsində cəmiyyətin sosial və mədəni həyatına dair məsələlər diqqət mərkəzindən kənarda qalmışdır. Vətəndaş Cəmiyyəti İnstitutlarının bu sahədə müstəqil və təsirli işinin ümidləri bu günə kimi özünü doğrultmadı. İndi dövlət orqanları ciddi olaraq humkanitar siyasətlə –elm, mədəniyyət, təhsillə məşğul olmağa başladı. Birinci növbədə ən kütləvi olan KİV-ə, eləcə də televiziyaya diqqət yönəltmək lazım gəldi. Yalnız dövlər strukturlarına bel bağlamaq laxım deyil. Bunun üçün televiziyaları bu işə vadar etmək, təklif etmək və təkid etmək vacibdir.

Minimum proqram –öz öhdəliklərini yerinə yetirmədikləri görə telekanalların cəzalandırılması və təsiredici vasitələrə nəzarətin təşkil olunması.

Maksimum proqram –dövlət kanalı formatında uşaqlar üçün verilişin hazırlanması və ya ictimai televiziya sxeminə uyğun olaraq ümummilli uşaq kanalının yaradılması.

Bu ideyalarla uşaqları inkişaf etdirən televiziyanın tam konsepsiyasının hazırlanmasını möhkəmlətmək lazımdır. Konsepsiyanın mahiyyəti zamanla uşaq televiziyasının tərbiyəedici fuknsiyası və cəmiyyətin tələbinə inandırıcılığı göstərməkdir. Burada televiziya qarşısında müəyyən vəzifəkər qoyulduqda, onun həlliu ilə dövlətin bütün tərbiyəedici-maarifləndirici sistemləri-məktəb, ailə, ictimai təşkilatların məşğul olması fikri yanlış göstərilmişdir.

Konsepsiyanın baxışı nöqteyi-nəzərindən inkişaf etdirici uşaq televiziyası verilişləri başqa vəzifələri də yerinə yetirməlidir, belə ki, birinci olaraq mədəni-maarifçilik, tərbiyəedici-öyrədici funksiyaların adını çəkmək lazımdır. Müasir uşaqlar çoxmillətli və çoxdinli cəmiyyətdə birgə yaşayışı unutmuşlar. Bu səbəbdən uşaq verilişləri televiziyanın maarifləndirici funksiyası vasitəsilə yenidən qurulmalıdır. Burada verilişlərin əyləncə xüsusiyyəti ikinci plana keçir. Əyləncə funksiyası uşaq televiziyası üçün daha dolğun, ancaq əsas funksiyası ilə birgə emosional pozitivliyin və motivasiyanın gücləndiricisi kimi uyğun ola bilər.

Televiziya bir sıra gücə malikdir. Lakin onun fəaliyyəti tərbiyə və maarifçilik vəzifələrinin televiziya incəsənətinin köməyi ilə effektiv və daha yaxşı həll

oluna bilən mühitdə fokus (əks) olunmasıdır. Televiziyanın kiçik tamaşaçılar üçün maksimum faydası məktəbdə alınmış biliyin möhkəmləndirilməsi, uşaq yaradıcılığı və bədii təfəkkürün stimullaşdırılması, ümumi inkişafın doğru, düzgün vektorunun verilməsidir. Uşaq verilişləri inkişafına milli verilişlərin paradiqma (sözlərin hallara salınması və ya dəyişməsi formalarını göstərən cədvəl) funksiyalarının əvəz edilməsi əhəmiyyətli təsir göstərmişdir.

Rəqəmsal TV və televiziya ilə internetin calağının ciddi perspektivlərini açsaq, onlar XXI əsrdə tezlik və resurs məhdudiyyətini aradan qaldıracaq və planetin istənilən nöqtəsinə istənilən sayda televiziya kanalları çatdıracaq. Ancaq bugünki teletamaşaçıların real maraqlarını unutmağa haqqımız yoxdur. Nə qədər az seçim olsa, bir o qədər teleproqrama tələb çox olar. Televiziyalarda ədalətli töhməti nəzərə alsaq görərik ki, bir çox kommersiya telekompaniyaları reytinq arxasınca düşüb əxlaqi oriyentirləri və xalqa münasibətdə mədəni-maarifçilik vəzifələrini unudurlar. Çap işləri üzrə nazirlik, teleradio verilişləri və KİV Milli televeriliş Assosiasiyası ilə razılığa gəlmişlər ki, veriliş üçün lisenziyanın verilməsi və vaxtının uzadılması ictimai əhəmiyyətli proqramın efirdə mövcud olmasından irəli gəlir. Sözsüz ki, bunların arasına uşaq və yeniyetmələr üçün verilişlər də daxildir[1].

Televiziya kanallarında uşaq verilişləri payının genişləndirilməsi, onların keyfiyyətinin yüksəldilməsi, proqrama yeni və müvafiq, uyğun vaxtın seçilməsini israr edərək onlarla daha çox və məqsədyönlü işləmək lazımdır. Əgər bu tədbirlər təsirli olmazsa, o zaman televiziyanın öz vəzifələrini yerinə yetirmədikləri üçün cəzalandırılmasını nəzərdə tutmaq və daha təsirli vasitələr tərtib etmək lazımdır.

Televiziya XXI əsrdə cəmiyyətin bir tərkib hissəsi kimi yalnız onun qanunları ilə yaşamır, həm də öz qanunauyğunluqlarını-ideya, metod və yaradıcılıq işləri formalarının tokkuşmasını, yeni paradoksları doğurur və inkişaf etdirir;

---

[1]Телевизионная журналистика. /Под ред. Г. В. Кузнецова, В. Л. Цвика, А.Я. Юровского. – М.: Высшая школа, 2002. – с. 359.

ziddiyyətlər isə irəliyə doğru atılan müxtəlif mənalı, qeyri-bərabər addımların tamamlayıcı mənbəsi kimi təşəkkül tapır, bu hərəkətin müxtəlif mərhələlərində – köhnədən təzəyə, keçmişdən gələcəyə eyni dərəcədə öz əksini tapır[1].

Bu gün Azərbaycan telekanallarında uşaq verilişlərinin keyfiyyəti çox aşağıdır və bu sahədə bir sıra yeniliklər edilməlidir: proqramların keyfiyyəti yaxşılaşdırılmalı, yerli cizgi filmləri çəkilməli və auditoriyanın yaş həddi düzgün müəyyənləşdirilməlidir. Bu kimi tədbirlər həyata keçirilərsə, həm uşaqlar milli ruhda tərbiyə ala, həm də tarixi-coğrafi bilikləri genişləndirə bilərlər.

Azərbaycan Milli Televiziya və Radio Şurası sədri Nuşirəvan Məhərrəmli efir məkanında uşaqlar üçün verilişlər və cizgi filmləri ilə bağlı yaranan problemin həlli üçün təkliflərini açıqlayıb: “ Uşaq verilişləri bizim ən ağrılı yerimizdir. Hazırda Azərbaycanda istər televiziya kanallarında verilişlərin hazırlanmasında, istər cizgi filmlərinin çəkilməsində çox böyük problemlər var”. MTRŞ sədri Mədəniyyət və Turizm Nazirliyinin də geniş payı olduğunu vurğulayıb: “ Kino çəkilişi çox böyük vəsait tələb edir, lakin 50-60 min manata Azərbaycan ədbiyyatı, tarixi, coğrafiyası əsasında cizgi filmi çəkilə bilər”. O həmçinin 2-3 milyon manat məbləğində birdəfəlik yardım ayırmaqla Azərbaycanda 50-yə qədər cizgi filminin çəkilməsi təşəbbüsünü də irəli sürmüşdür.

Azərbaycanda uşaqların iştirak etdiyi verilişləri hazırlamaq başqa bütün vürilişləri ərsəyə gətirməkdən qat-qat çətindir, amma mümkündür. Çətindir, çünki baza yoxdur. Bütünlükdə uşaqları cəmiyyətə, onun qanunlarına alışdırmalı, birgə yaşayış prinsipləri barədə ilkin məlumat verməli, müəyyən bilik baqajı yaratmalı olan bağçalar və məktəblərdə təhsil, tərbiyə, ümumi səviyyə tələb olunan dərəcədə deyil.

Bu ilin aprel ayının 15-də Azərbaycan Jurnalist Qadın Assosiasiyası “Uşaq mətbuatı bu gün: problemlər, perspektivlər” mövzusunda konfrans keçirilib. Konfransda uşaq mətbuatının tarixinə nəzər salınıb. Burada qeyd edilmişdir ki, müstəqillikdən sonra uşaq mediası sahəsində axsama hiss olunur. Tirajların

---

[1] Егоров В.В. Телевидение: Страницы истории. – М.: Аспект-Пресс, 2004. – с. 192.

aşağı olması, uşaqların psixologiyasına mənfi təsir göstərə biləcək yazılara yer verilməsi diqqətdən yayına bilməz. Üstəlik bu gün uşaqlarımız bu kimi jurnalları oxumağa meyl göstərmir. Bunu aradan qaldırmaq üçün uşaq kanalının açılmasını ən yaxşı üsullardan biri hesab edirəm. Həmin kanal vasitəsilə həmin jurnal və qəzetlər də reklam olunub tanınmalıdır.

Azərbaycan televiziyalarında uşaq hüquqlarını pozan heç bir veriliş efirə buraxılmamalıdır. Bu çox vacib amildir. Biz nəyisə inkişaf etdirmək məqsədi güdürüksə, bunun qarşısında duran problemləri aradan götürməliyik. Heç bir Avropa ölkəsində efirə buraxılmayan verilişlər bizdə böyük maraqla izlənilir. Hazırda bir çox televiziyalarda gedən xüsusən uşaq verilişləri onları əyləndirsə də, onlara pis nümunə olur. Verilişin, xüsusən şou xarakterli verilişlərin efirə buraxılmasında uşaq psixologiyasını nəzərə almaq lazımdır.

Azərbaycan televiziyalarındakı verilişləri izləyən uşaqlar şəxsiyyət yox, imitator kimi böyüyürlər. Bu gün siz uşaqdan kimə bənzəmək istədiyini soruşun. Mütləq cavabında bir müğənni, yaxud meyxanaçı adı çəkəcək. Çünki uşaq verilişlərinə daha çox müğənnilər dəvət olunur. Buna görə televiziya verilişlərində uşaq mütəxəssislərinin olması vacibdir: psixoloqlar, pedaqoqlar, ancaq uşaqlar üçün yazan ssenaristlər vəs. Bu amil peşəkar və faydalı verilişin təminatçısıdır.

Uşaq verilişlərində əsas bir şey nəzərə alınmalıdır, bugünkü uşaqlar 20-30 il əvvəlki uşaqlar deyillər. İndi onları “ Keçəl”, “Kosa” oyunları ilə aldatmaq olmur. Bu, heç də o demək deyil ki, “ Keçəl”, “Kosa” oyunları artıq bizə lazım deyil. Bu oyunlar mövsümi xarakterlidir. Bir də onlar daha çox dünənlə bağlıdır. Zəmanə uşaqları intellektual və geniş dünyagörüşlüdürlər. Eyni zamanda narkomaniya, terror kimi bəşəri bəlalarla üz-üzədirlər. Bu baxımdan uşaq verilişləri hazırlanarkən onun müasir tələblərə cavab verməsi əsas götürülməlidir.

Biz də razılaşırıq ki, televiziyalarımızda təqdim edilən proqramlarda müasir uşağın dünyagörüşü ilə üst-üstə düşməyən, onun maraqlarını tam şəkildə əhatə etməyən məqamlar çoxdur. Bu verilişlərin səviyyəsi qonşu ölkələrin televizi-

yalarında yayımlanan uşaq verilişlərinin səviyyəsindən çox aşağıdır. Onlar bizimlə müqayisədə uşaqlara onların ürəyindən xəbər verən, bütün vasitələrlə məlumatlandıran rəngarəng proqramlar təqdim edirlər, özü də nağıl qəhrəmanlarının və digər personajların iştirakı ilə. Bu verilişlərdə rəng çalarları xüsusilə seçilir. Həmin verilişlər o qədər maraqlı olur ki, hətta onlara baxanda böyüklər də özlərini bir anlığa uşaq kimi hiss edir. Bu sözləri Türkiyədə, Rusiyada dərc edilən uşaq jurnalları, qəzetləri haqqında da deyə bilərik. Ola bilsin ki, bizim dərgi və qəzetlərin içində toplanan materialların səviyyəsi, keyfiyyəti onlarla müqayisədə daha mükəmməldir, lakin bizim nəşrlərin tərtibatı, formatı (texniki səviyyəsi) çox zəif olur.

İxtisaslaşdırılmış uşaq televiziyalarının olmaması problemi çoxdandır ki, jurnalistləri, valideynləri, eləcə də pedaqoqları narahat edir. Uşaq psixikasına təsir etmənin gücünə görə televiziya heç bir şey ilə müqayisə edilə bilməz. Alimlərin araşdırmalarına əsasən, yaxşı qurulmuş uşaq televiziyalarının köməyi ilə bir çox aktual və mühüm məsələləri həll etmək olar. Məsələn, televiziya uşaqlarda kitaba sevgi aşılaya, onları hərtərəfli inkişaf etdirə, öyrədə və tərbiyələndirə bilər.

Əlbəttə, bu gün televiziyalarda özündə inkişaf etdirici və öyrədici xarakteri əks etdirən ayrıca uşaq proqpamları vardır, ancaq burada da iki problem mövcuddur. Birincisi, bu verilişlərdəki informasiya axınının keyfiyyəti çox aşağıdır və onlar uşaqların şüurunu korlayır. İkincisi, uşaq proqramlarının böyük əksəriyyəti peyk vasitəsilə yayımlanır.

Yaxşı uşaq televiziyası necə olmalıdır? Psixoloqlar əmindirlər ki, uşaq televiziyasının başlıca məqsədi tərbiyə olmalı, onun arxasınca isə maarifçilik və əyləndirmə funksiyası gəlir. Uşaqlara məhz teleekrandan etik normaların aşılanması bir çox ictimai problemlərlə mübarizədən başlayır. Psixoloqlar əmindirlər ki, əgər yeniyetmələrin xüsusilə yaradılmış və onların maraqları ilə üst-üstə düşən, özündə tütünün, içkinin və narkotikin ziyanları barədə məlumatları əks etdi-

rən televerilişlərə baxmaq imkanları olsa, bu kimi xoşagəlməzliklərlə mübarizə daha da müvəffəqiyyətli olardı.

Uşaq verilişləri böyük potensiala malikdir, hansı ki, onlardan hələ istifadə olunmur. Uşaqlar məhz televiziya ekranından əyləncəli formada onlar üçün nəzərdə tutulmuş faydalı informasiyaları daha yaxşı mənimsəyirlər. Oyunların köməyi ilə uşaqlar çox asanlıqla xarici dil öyrənə bilər, yol qaydaları ilə tanış ola və hər hansı bir sənət təcrübəsinə yiyələnə bilər. Beləliklə, uşaq televiziyası inkişaf etdirici və öyrədici olmalı, ədəb-əxlaq qaydalarını nizama gətirməli, yüksək əxlaqlı və pozitiv olmalıdır. Daha vacib bir məqam – bu cür televiziya uşaqlara sərbəst düşünməyi və müəyyən bir nəticəyə gəlməyi öyrətməlidir.

*IV FƏSİL*

## ELEKTRON KİV-nin UŞAQLARA TƏSİRİ

Bu gün internet jurnalistikada da tətbiq olunur. Elektron jurnalistika XX əsrin sonlarında internetin yaranması və genişlənməsi ilə meydana gələn yeni növ jurnalistikadır. İnternet jurnalistikanın əsas xüsusiyyəti onun interaktivliyidir. Əksər virtual nəşrlərlə maraqlanan oxucular üçün forumların və qonaq kitabçaların köməyilə operativ dioloqa girmək imkanı da var.

Elektron jurnalistika –bu çox geniş anlayışdır və yalnız internet KİV-i yox, həm də ənənəvi radio və televiziyanı əhatə edir. İnternet jurnalistika – informasiya obrazlarının çatdırılması fəaliyyətini əks etdirən yeni keyfiyyətlər qazanmış mədəni və sivilizasiyalı fenomendir ki, bu informasiyanın daşıyıcısı yalnız söz deyil, həmçinin foto, kino, video, səs, veb səhifədir. Elektron qəzet-özündə qlobal şəbəkə-internet yolu ilə periodik qəzet və jurnalların nəşrini nəzərdə tutur. İnternet yolu ilə mətnlərin yayılması, televiziya izlənilməsi və ya radio dinlənilməsi mümkündür.

İnternet jurnalistikanın vacib xüsusiyyətlərindən biri onun interaktiv, operativ, multimediyalılığı, aktuallığı, sərhədsizliyidir. Elektron KİV digər KİV-ə nisbətən daha operativdir. Oxucu ilk xəbəri internetdən alır. Sərhədsizlik- internet KİV zaman və məkan tanımır, ən qısa zamanda ən uzaq məsafəyə çatmaq KİV içərisində onu daha perspektivli etmişdir, çünki digər KİV-lər müəyyən yayım məsafəsinə malikdir. Aktuallıq- internet, demək olar ki, gecikmədən real vaxt rejimində nəşri nəzərdə tutur. Düzdür, indi aktual olan bir neçə saatdan, dəqiqədən və ya gündən sonra aktuallığını itirə bilir, ancaq oxunaqlı olaraq qalır. Çeviklik –materialı ən ifadəli şəkildə şərh etməyə, onu qısa zamanda yenilə-

məyə imkan yaradır, istifadəçilərdə daimi maraq saxlamaq üçün onlara səhifənin düzənlənməsində iştirak etməyə şərait yaradır.

"Dövlət orqanları uşaqların təbliğat və təşviqat tipli, onların sağlamlığına, əxlaqi və mənəvi inkişafına ziyan vura bilən informasiyalardan qorunması üçün müəyyən tədbirlər görürlər".

Bir məqalədən götürdüyüm bu epiqrafla mən onu qeyd etmək istəmirəm ki, bizim ölkədə hər şey yalnız kağız üzərində mövcuddur, onu demək istəyirəm ki, bu cür gözəl sözlər reallıqda öz əksini tapmır. Məqalədə deyilir: "Dövlət orqanları uşaqların təbliğat və təşviqat tipli, onların sağlamlığına, əxlaqi və mənəvi inkişafına ziyan vura bilən, həmçinin milli, sinfi, ictimai dözülməzlik, içki məmulatları və tütün istehsalının reklamlarından, ictimai, irqi, milli və dini bərabərsizliyin təbliğatı, həmçinin çap məhsulları, audio və video məhsulların yayılması, zorakılıq və qəddarlığı, pornoqrafiya, narkomaniya, toksikomaniya, cəmiyyətə zidd davranışları təbliğ edən informasiyalardan qorunması üçün müəyyən tədbirlər görürlər".

Kütləvi informasiya vasitələri haqqında qanunda deyilir ki, uşaqların baxması məsləhət görülməyən veriliş və reklamlar yalnız xüsusi kanallarda və təyin olunmuş vaxtlarda göstərilməlidir. Bəs nə üçün gecə və gündüz istənilən vaxt televizorda bu şeyləri görə bilirik?

KİV özündə nəyi əks etdirir? Kütləvi informasiya vasitələri-metod və idarələr vasitəsilə mərkəzləşdirilmiş informasiya və simvolik rabitənin digər formalarını geniş, müxtəlif və coğrafi dağınıqlığı olan auditoriyaya ötürürlər.

Kütləvi İnformasiya Vasitələrinə çap məhsulları, radio və televiziya daxildir. Onların tarixləri zamanına, göstərişinə və auditoriyaya təsir vasitələrinə görə fərqlənir.

KİV informasiyanın düzgünlüyü və tirajlanmasını təmin edir və bunun sayəsində kütləvi auditoriyaya təsirin güclü mexanizminə çevrilir. KİV-in fəaliyyətinin əsas şərtlərindən biri ötürülən informasiyanın ictimai əhəmiyyətli olmasıdır.

İnformasiyanın ictimai aktuallıq kəsb etməsi ilə bərabər onun qiymətli informasiya olması da böyük əhəmiyyət daşıyır. İnformasiya alan şəxs istər-istəməz qiymətli informasiya almaq ümidində olur. Bu ümid onunla izah olunur ki, KİV ictimai institut kimi kütləvi auditoriyanın inamını qazanmaq üçün informasiyanın rəsmi mənbəsi statusuna malikdir. İnformasiyanın həqiqiliyini yoxlamaq çətindir, oelə buna görə də auditoriya cəmiyyətdə üstün fikirləri özündə əks etdirən qiymətli informasiyalara çox həssalıqla qulaq asırlar. İnformasiyanın təsiredici olması onun auditoriyanın tələblərinə nə qədər uyğun olması və davamlılığından asılıdır.

Heç bir informasiya vasitəsi televiziya kimi sürətli və coşqun inkişafa rast gəlməmişdir.

Televiziya insan gözünün təbii imkanları sərhədləri xaricində məsafəni görməyə imkan verən texniki vasitə kimi ixtira edilmişdir. Telekameranın hadisələri baş verdiyi yerdən və həmin dəqiqədə göstərməsi imkanı heç kəs üçün sirr deyil. Bundan başqa, televiziya informasiyasının məhz bu keyfiyyətləri – onun vizuallığı, etibarlılığı, son dərəcə operativliyi – sənayedə, nəqliyyatda, hərbi işdə və kosmosun mənimsənilməsində TV-nin geniş tətbiq olunmasına səbəb olmuşdur. Mədəniyyətin inkişafında da televiziyanın rolu az deyil.

Bu gün televiziyanın ictimai həyatdakı rolunun çox yüksək olması mübahisə edilməz bir dərəcədədir. Televiziya – köhnə mədəniyyətin məşhurlaşmasında illüstrasiyalı jurnala bənzər əla vasitədir. Balaca teleekranın köməyi ilə insanlar həm məkan, həm də zaman baxımından uzaq olan mədəniyyət nümunələrinə daxil ola bilirlər.

Divardakı pəncərə və teleekranın mövcudluğu arasında fərq vardır. Çölə açılan pəncərə hadisələrin inkişafında iştirak erməyə giriş və çıxış etmək üçün işarə ilə çağırır, TV pəncərəsi isə dünyanı, hər şeydən əvvəl, kresloya bağlayır.

TV proqramları hadisələrinin böyük əksəriyyəti həqiqətlərin əyani mənimsənilməsi səviyyəsinə qalxa bilmir, tamaşaçı isə hər şeydən əvvəl informasiyanın primitiv vizuallığı ilə qarşılaşır. Buna TV ekranlarında göstərilən alko-

qollu içkilərin reklamı, səviyyəsiz seriallar və başqalarını misal göstərə bilərik ki, bu tip verilişlərdə azyaşlı uşaqlar üçün təhlükəli informasiyalar mövcuddur.

İnternetdə mövcud olan KİV özünün mənşəyinə görə fərqlənir. Ənənəvi KİV-in təkamülü nəticəsində qəzet, televiziya və radio buraxılışının veb-səhifə və ya elektron versiyasının tamamlanması ilə birinci kateqoriya yarandı. KİV-in ikinci kateqoriyası şəbəkə texnologiyası bazasında meydana gəlmiş və yalnız internet səhifələri arasında işləyir. Bu elektron KİV veb-tirajlar adlanır. Bunlara şəbəkə qəzetləri aid edilir.

Lakin internetin özünün də mənfi cəhətləri vardır. İnformasiya saytları ilə yanaşı zorakılıq, qəddarlıq, pornoqrafiya və narkomaniyanın təbliğ olunduğu digər saytlar da mövcuddur. Evdə tək oturan hər bir uşaq bu saytlardan istifadə edə bilər. Buna görə də təəccüblü deyil ki, cinayətkarlığın səviyyəsi həddi-buluğa çatmamış uşaqlar arasında daha çox artır.

Bizim cəmiyyətin, valideynlərin bu sahədə tam passivliyi məni təəccübləndirir. Uşaqların təmtəraqlı vəd edilmiş müdafiəsi haqqında hökumət nümayəndələri, mövcud vəziyyətə gözünü yuman böyüklər nə düşünürlər? Əgər heç bir tədbir görülməzsə, 15-20 ildən sonra cəmiyyət yaxşısını arzulayacaq. Hal-hazırda bizim ölkədə mədəniyyət və mənəvi tərbiyə, çətin ki, axırıncı yerdə dayanır. Bir neçə ildən sonra bizim gənclərin vəziyyəti necə olacaq – bu barədə düşünmək belə qorxuludur. Unutmamaq lazımdır ki, balaca uşaqlar gələcəkdə ölkədə yaşayacaq və işləyəcək, müəyyən bir fəaliyyətlə və ya ola bilsin, qanuni yaradıcılıqla məşğul olacaq gələcəyin böyükləridirlər.

Buradan aydın görünür ki, yeni tədbirlər görmək lazımdır və bu, yalnız yerli səviyyədə deyil. Bu gün valideynlər yeni tərbiyə üsulu tapmağa çalışırlar, ancaq məktəblərdə, uşaq bağçalarında kütləvi tərbiyə metodlarını dəyişmək üçün qlobal tədbirlər qəbul edilməlidir. Mən elə hesab edirəm ki, uşaqların mənəvi və əxlaqi tərbiyəsinə, eləcə də xüsusi diqqət yetirilməyən cinsi münasibətlər mədəniyyətinin təbliğinə daha çox vaxt ayırmaq lazımdır. Uşaqlar televiziya ekranından öyrəndikləri ilə yanlış qavrama, yönləndirmə formalaşır.

İnsan xarakteri cizgilərinin böyük əksəriyyəti məhz uşaqlıqda təşəkkül tapır. Onların gələcək rəftarı, insanlara münasibəti məhz bu dövrün necə keçməsi ilə əlaqədardır. Uşaqların problemlərinə daha diqqətli yanaşma, onların bu gününü təmin etmək, bütün cəmiyyətin gələcəyini təmin etmək deməkdir: həm indiki nəslin, həm də əcdadlarımızın.

# NƏTİCƏ

Araşdırma üçün mən Azərbaycan televiziyaları üçün ən aktual və problemli mövzulardan birini-uşaq və yeniyetmələr üçün olan verilişləri seçdim. Mövzunun məhz uşaq verilişləri ilə bağlı olması son dərəcə əhəmiyyətlidir. Əgər Azərbaycanda bütün KİV, istər qəzet, jurnal, istərsə də elektron informasiya vasitələrini mühakimə etsək görərik ki, televiziyalar əsas informasiya mənbəyi sayılır. Hansı ki, bu mənbələr ən gənc auditoriyanı-uşaq və yeniyetmələri, demək olar ki, iqnor edirlər. Mövcud vəziyyəti tam anlamı ilə başa düşmək və qiymətləndirmək üçün televiziyanın insanlara təsiri və nəticələrinə diqqət yetirmək lazımdır.

Bəllidir ki, TV-nin təsir etmək imkanları çoxdur. Televiziya vasitəsilə kütlənin psixologiyasını belə dəyişmək mümkündür. Düzgün qurulmuş strategiya ilə mütəmadi olaraq işıqlandırılan hər hansı bir mövzunu şüuraltına yeritmək o qədər də çətin deyil. Bu səbəbdən də bir çox ölkələrdə digər ölkənin TV yayımının qarşısının alınması dövlət əhəmiyyətli məsələlərdən biridir. Amma kabel TV və peyk vasitəsi ilə yayımlanan TV-lərin baxılması tam sərbəstdir. Hər kəs, balacadan böyüyə Qərbdən Şərqə yayımlanan verilişləri rahat maneəsiz izləmək iqtidarındadır. Lakin bəla budur ki, bəzən yerli televiziyalar bilmədən tamaşaçı psixologiyasına mənfi təsir edir. Reytinqlərin dəbə düşməsi ilə milli TV məkanında sosial-kriminal mövzulara geniş yer verilir. Amma bu verilişlərin əksəriyyətində peşəkar məsləhətlər olmur. Problemi qabardaraq onun həlli yollarını göstərməməklə TV bəzən ailədə belə müzakirəsinə qadağa qoyulan mövzunun mənfi formada qavranılmasına şərait yaradır. TV-nin insan şüuruna təsir etmək qabiliyyətini nəzərə alsaq, belə olan halda TV mənfi obrazlı qəhrəmanlar yetişdirir. Bu proses sadə, anlaşıqlı bir düsturla baş verir. Hər bir yerli və ya xarici TV tamaşaçısının sosial vəziyyətindən asılı olmayaraq onu

tərbiyələndirməyə qadirdir. Bu köməkçi tərbiyəçilər TV-nin aparıcı simaları, təsvir və səslə müşayiət olunan arakəsmələrdir. Qrafik arakəsmələrdə konkret, real video təsvir olmasa da, cizgi, naxış və rənglərin məntiqi vəhdəti şüuraltında obraz yaradır. TV-nin xarakteri də onun efirindən yayımlanan verilişləri və bu verilişləri ardıcıllıqla bir-birinə bağlayan arakəsmələrdir.

Qəzetlərdə, internet saytlarında TV-nin uşaqlara mənfi təsirlərindən çox danışılmışdır. Uşaq və yeniyetmə psixiatrları və psixoloqları hesab edirlər ki, XXI əsrdə uşaqların əsas xəstəlikləri TV və kompüterə aludəçilik və onlrın törətdiyi xəstəliklər olacaq.

Burada onu da qeyd etmək vacibdir ki, uşaqlar televiziyada göstərilən dünyanın işərisinə o qədər daxil olurlar ki, onlar televiziyanı öz ürəklərinə yaxın hesab edir və onun tələbləri ilə yaşamağa çalışırlar. Televiziya istər-istəməz uşaqların hərəkətini yönləndirir, onları onun ekrandan göndərdiyi dünyanın qanunları ilə yaşamağa məcbur edir. Yönləndirmə birbaşa olmaya bilər, bu hər hansı bir vasitə ilə – uşaqların hərəkət və düşüncələrində psixoloji stereotiplərin obrazlarının yaranması ilə də ifadə oluna bilər. Sözsüz ki, bu, laqeydsizliyə, eqoizmin inkişafına, rəhmsizlik və qəddarlığa gətirib çıxarır.

Beləliklə, televiziyanın xarakterindən asılı olaraq onun sadiq tamaşaçısı da melonxolik, xolerik, sanqvinik, fleqmatik temperamentliyə çevrilə bilər. Lakin tamaşaçını doğru düşünən, sənətə qiymət verən, Vətəni sevən kimi tərbiyələndirən, tamaşaçıda yüksək zövq yarada bilən TV-yə hər zaman ehtiyac var.

Bu gün televiziyalar üçün ön planda, demək olar ki, reytinq dayanır, digər qalanları isə aktuallığını itirir. Bir tərəfdən bu, çox başa düşüləndir, çünki televiziyalar mövcud olmaq üçün işləməlidirlər. Digər tərəfdən isə onlar açar funksiyalarını-mədəni maarifçilik, əyləndirmək, bilgiləndirmək-yerinə yetirməyi unudurlar. Əgər uşaq verilişlərindən danışırıqsa, burada vəziyyət daha qarışıq və çətindir.

Beləliklə, televiziya rəhbərliyinin reytinq və gəliri olmayan uşaq verilişləri ilə efir vaxtını doldurmağı lazım bilmədikləri açıq-aydın görünür.

Bu problemi həll etmək üçün qərarlaşmış situasiyanı kökündən dəyişmək lazımdır. Hər şeydən əvvəl, uşaqlar üçün keyfiyyətli televiziya məhsulu hazırlamaq qabiliyyətinə malik olan professional kadrların planlı şəkildə seçilməsi və hazırlanması lazımdır. Bunun üçün kanallara dövlətin məqsədyönlü yardım proqramı lazımdır ki, onlar uşaq və yeniyetmələr üçün verilişlərin hazırlanmasında maraqlı olsunlar.

Ümumiyyətlə, uşaq verilişləri onların yaş kateqoriyalarına uyğun hazırlanmalıdır.

Uşaq psixikasının sağlamlığı ilə bağlı layihələr hazırlanmalı, həmçinin uşaq verilişlərində pedaqoqlar olmalıdır. Hədəf bölgəsinin şəhər, yaxud rayonlar olduğu dəqiqləşdirilməlidir. Uşaqların enerjisini çıxaran və məktəb həyatını hər gün xatırladan, amma etibarlı və maraqlı verilişlər hazırlanmalıdır. Bu istiqamətdə xüsusi mütəxəssislər hazırlanmalı və tenderlər keçirilməlidir. Həmçinin uşaq verilişlərinin tərkibində xüsusi xəbər proqramları verilsə, uşaqlar üçün xüsusi seriallar çəkilsə onlara daha da maraqlı gələr.

Uşaq verilişləri dərin bir krizis dövrünü yaşayır. Bunu anlamaq üçün verilişlərin siyahısının öyrənilməsi kifayətdir. Uşaq proqramları nə dövlət, nə də özəl kanallarda praktiki olaraq yox səviyyəsindədir. Bu gün Azərbaycan teleməkanında uşaq verilişləri mövcud olmasına baxmayaraq, onlar kütləvilik qazanmamışdır. Uşaq proqramlarının keyfiyyətindən danışmaq çətindir, çünki onları qiymətləndirməyə çalışsaq görərik ki, əksəriyyəti xaricdən alınmış ucuz, keyfiyyətsiz cizgi filmləridir. Bəzi kanallar qanunun tələblərini yerinə yetirmək üçün efir vaxtını xaricdə istehsal olunan bu cür cizgi filmləri ilə doldurmağa çalışırlar, hansı ki, burada tərbiyəedici və maarifləndirici funksiyadan söhbət belə gedə bilməz. Uşaqlar özündə mədəniyyəti, adət və ənənələri əks etdirən milli televerilişlərdən məhrum edilmişlər, onlar böyüklər üçün hazırlanmış

verilişlərə baxmağa məcburdurlar və bunun sayəsində dünyanı başqa bir tərəfdən anlayırlar.

Həyatda mövcud olan problemlər öz əksini televiziyalarda da tapır. Aşağı səviyyəli, əxlaqsız seriallar, kriminal xronikalar və araşdırmalar, böyüklər üçün əyləcəli verilişlərin çoxluğu və demək olar ki, uşaq proyektlərinin olmaması ondan xəbər verir ki, biz uşaqlıq dövrünə və tərbiyəyə lazımi diqqəti ayırmırıq.

Elektron KİV, eləcə də televiziya müasir uşaqların ictimailəşməsində əsas faktorlardan birinə çevrilmişdir. Uşaq proqramları və filmləri hazırlayan gənclər üçün redaksiya və studiyaların olmaması daha bir yetişməkdə olan nəslin tələf olmasına gətirib çıxarır. Uşaq verilişləri yalnız cizgi filmləri demək deyil, bu həmçinin elmi cəhətdən populyar olan tədris proqramlarının, klassik əsərlərin ekranlaşdırılması, incəsənət və musiqi haqqında söhbətlər, eləcə də müasir, həmçinin saysız-hesabsız digər janr formaların böyük bir hissəsindən təşkil olunmalıdır. Müasir Azərbaycan televiziyaları uşaq və yeniyetmələrdən çox uzaqdadır, hətta çətin yenidənqurma illərində efir uşaq verilişlərinə daha çox vaxt ayırırdı, bu gün isə buna demək olar ki, çox az rast gəlinir.

Sovet dövründə uşaq verilişləri birinci növbədə ictimai, maarifləndirici funksiyanın yerinə yetirilməsinə yönəldilmişdir, bütün bunlardan sonra əyləncə funksiyası gəlirdi. Sözsüz ki, heç bir kommersiya məqsədindən söz belə gedə bilməz, uşaq verilişləri dövlətin maliyyə yardımı ilə hazırlanır və məqsəd verilişin yüksək keyfiyyətli olmasına yönəldilirdi.

Sovet dönəmi ilə birlikdə televiziyalarda mövcud olan uşaq proqramları ilə yanaşı neçə onilliklərlə onların yaradılmasına sərf olunmuş təcrübə və ənənələr də itirildi, ən əsası isə bir neçə nəsil uşaqlar keyfiyyətli və maraqlı tele-məhsullarsız, hansı ki, onlara lazımi əxlaq örnəklərini, mənəviyyatı, mühaki-məliliyi və cavabdehliyi nümunə göstərən, ən yaxşı tərbiyəvi keyfiyyətləri özündə birləşdirən proqramlarsız böyüdülər. Və bütün bunların əvəzinə efirə başqa proqramlar gəldi-tərcüməsi çox aşağı səviyyəli olan ucuz keyfiyyətli cizgi filmləri; kifayət qədər aşağı dəyərləri və reklam verən şəxslərin sifarişinin yerinə

yetirilməsini əks etdirən, yaxşı tərtib olunmuş xarici verilişlərin aşağı səviyyəli versiyası və bu kimi şeylərlə mövcud olan gənc proqramları.

Adətən bu tipli cizgi filmləri və proqramlarda zorakılığı göstərən səhnələr öz əksini tapır. Uşaq cizgi filmləri və proqramlarında zorakılığın dərəcəsini göstərən statistika belədir: Bir çox 50 dəqiqəlik proqramlarda 56 zorakılıq səhnəsi aşkar olunmuşdur. Amerika ( eləcə də yapon ) istehsalı olan və bizim kanalların hamısı tərəfindən nümayiş olunan cizgi filmlərinin hamısı rəhmsizliyi və laqeydliyi təcəssüm etdirir. Onlar nə qəddar, nə də ki mehribandırlar. Məsələn, "Tom və Cerri". Belə bir nəticəyə gəlmək olar ki, hətta böyüklər də burada hansı qəhramanın qəddar, hansının isə mehriban olduğunu təyin edə bilsin. Uşaqlar burada heç kimin dərdinə şərik ola bilməzlər, çünki qəhramanlar bir-birini döyür, təngə gətirir, şən musiqi sədaları altında bir-birinin arxasınca gülür və qəribə səslər çıxarırlar. Bu tip cizgi filmləri sujetsizdir və əgər onlarda sujet varsa, o maksimum dərəcədə primitivdir; və burada əsas məqsəd kimin nüfuzlu, iqtidar sahibi olduğunu göstərməyə gətirib çıxarır ki, uşaqlar üçün əsas məqsəd abstrakt və anlaşılmaz qalır. Cizgi filmlərində bütün problemlər güc ilə həll ounur və uşaqlar da bunu şərhsiz beyinlərinə köçürürlər.

Uşaq verilişləri TV-lərin ən ağır və çətin sahəsidir. Uşaq verilişləri hazırlayan hər bir kanalın uşaqlarla bağlı zəngin bazası olmalıdır. Verilişöncəsi onun bütün detalları dəqiqliklə gözdən keçirilməli, vahid bir forma seçilməlidir. Təzə bir bina yaratdıqda onu köhnə ilə müqayisə etmək, əvvəlinciyə nisbətən möhkəm olduğuna əmin olduqdan sonra köhnəni yıxmaq olar. Bizdə isə əksinə, köhnəni çoxdan yıxıblar, təzəni də hələ tikməyiblər. Nəticədə isə uşaqlarımız evsiz qalıblar. Bu gün televiziyalar uşaqlarımızı tərbiyə etmək gücünü itirib. O, ancaq olub-qalanı pozmaqla məşğuldur. Problemlərdən optimal çıxış yolu dünya təcrübəsini öyrənməkdir. Xarici kanallarda yayımlanan uşaq verilişləri uşaqların istəklərinə cavab verir. Xarici telekanallarda, adətən, uşaqlar nə istəyirlər?- sualına cavab axtarılır. Bizdə bu suallar hələ aktuallıq qazana bilmir.

Beləliklə, bu gün televiziya kanallarının hazırladıqları verilişlər Azərbaycan gənclərini qane etmir, onun istək və arzuları ilə uyğunlaşmır. Nəticə etibarı ilə uşaqlar və gənclər peyk və ya kabel televiziyası vasitəsilə daha keyfiyyətli proqram siyasəti həyata keçirən, maraqlı verilişlər təqdim edən xarici televiziya kanallarına baxmağa üstünlük verir. Ortaq qlobal mədəniyyətin formalaşdığı hazırki dövrdə uşaqların milli ruhda tərbiyəsi, tarixi ənənələrinə, soy-kökünə bağlanması çətinlik yaradır. Bütün bunların qarşısının alınması üçün bu sahədə yeniliklər etmək, yeniyetmə və gənclərin həyat tərzinin işıqlandırıldığı, onları daha çox maraqlandıran mövzuların əhatə edildiyi verilişlərin hazırlanması ön plana çəkilməlidir.

Rus saytlarından birində verilən məlumata əsasən bugünkü gəncləri maraqlandıran mövzular aşağıdakılar hesab edilir (Bu mövzular məktəblilər arasında aparılan sorğuya əsasən müəyyənləşdirilib):

- ✓ özünü gələcəyə necə yaxşı hazırlamaq olar;
- ✓ valideyn və uşaq, yaşlı nəsil və gənc, müəllim və şagird münasibətləri;
- ✓ məktəbdən sonrakı təhsil, pullu təhsil şərtlərinə necə adaptə olmaq olar;
- ✓ gənclərin işlə təmin edilməsi;
- ✓ uşağın sosial müdafiəsi;
- ✓ seksual tərbiyələndirmə;
- ✓ sağlam həyat tərzi, narkomaniya, alkoqolizm və tütünlə mübarizə;
- ✓ gənclərin həyatının müxtəlif tərəflərdən işıqlandırılması, təhsil və professional cəhətdən öz müqəddəratını təyin etmək haqqında informasiya;
- ✓ milli özünüdərk haqqında;
- ✓ ekoloji tərbiyə, insanlığın dünyəvi bir yerdə yaşamaq uğrunda mübarizəsinin mühüm məsələləri haqqında.

Uşaq verilişlərinin canlanması özündə yetişən nəslin vətəninin mədəniyyətinin qiymətləndirilməsinə, Vətəninə, onun keçmişinə hörmətin formalaşdırılmasına, uşaqlara öz ölkələri ilə fəxr etmələrinin aşılanmasına, dil və xalq adət-

ənənələrinə hörmət edilməsinə istiqamətləndirildiyini hökmən bildirməlidir, yəni televiziyanın yazılmamış qanunları olan ictimai öhdəçiliyin yerinə yetirilməsidir.

Uşaqları gələcəyə sağlam şəxsiyyət kimi yetişdirmək istəyiriksə, onlar üçün maraqlı informasiya dünyasının yaradılmasına çalışmalıyıq. Bu sahədə Azərbaycanın uşaq folklorunun zəngin janr strukturu uşaqların dünyagörüşünün, mənəviyyatının saf və ülvi təməl üzərində formalaşmasına əsaslı təsir göstərən nümunələrlə zəngindir. Uşaqların yaradıcı potensialının aşkarlanması, milli-mənəvi ideallara bağlılığı baxımından tapmaca, rəvayət, nağıl, əfsanə, bayatı, layla və digər folklor janrlarından istifadə son dərəcə əhəmiyyətlidir.

Bizim baxış açımızdan uşaq verilişləri heç bir böhtansız, şərdən uzaq və yalnız uşaqlar üçün olmalıdır. Uşaq verilişlərinin hazırlanmasında yalnız böyüklər üçün proqram və reklam rolikləri hazırlayan rejissorlar işləməməlidir, həmçinin uşaq psixologiyasını bilən, onlara nəyin lazım olub-olmadığı haqqında dəqiq təsəvvürü olan və uşaqlara informasiyanı onlar tərəfindən qəbul olunan və anlaşılan bir şəkildə çatdırmağı bacaran psixoloq və müəllimlər çalışmalıdırlar. Uşaq verilişləri uşaqları sağlam cəmiyyətin mükəmməl üzvünə çevirərək, onlarda düşünmək, başa düşmək, bir kimsənin dərdinə şərik olmaq və kömək etmək kimi hissləri inkişaf etdirməli və tərbiyələndirməlidir.

Uşaq proqramlarının milli telekanallara qaytarılması üçün əhatəli, planlı, düşünülmüş işlər görmək vacidir. Yalnız bu yolla televiziyanın tərbiyəedici və maarifləndirici funksiyasını geri qaytarmaq olar. Bundan başqa, valideynlər, tərbiyəçilər, müəllimlər televiziyanı yeni nəslin tərbiyəsində onlara köməkçi, tərəfdaş görməlidir. Bu yalnız ictimai məsələ deyil, prinsipcə bu problem milli təhlükəsizlik, dövlətin bütövlüyü, onun xoşbəxt gələcəyi ilə birbaşa bağlıdır. Əgər yaxın vaxtlarda Azərbaycan gerçəkliyinə uyğun idarə olunan və həqiqətlərinə cavab verən uşaq verilişləri yaranmazsa, o zaman bir və ya bir neçə nəsi uşaq onlara əsl vətənpərvər, təhsilli mütəxəssis, öz vətənini sevən, onun adət və ənənələrini və imkanlarını qiymətləndirməyə lazım olan tərbiyə və bilikləri

almayacaq. Ola bilsin bizim sözlərimiz pafoslu səslənir, ancaq bütöv bir xalqın özünütanıması və qiymətləndirməsi məhz bunlarla tamamlanır.

Televiziya –nə qutu, nə ötürücü, nə də reytinqdir. Televiziyanı insanlar yaradır və efirin necə olması yalnız insanlardan asılıdır. Söz –nəhəng bir silahdır və jurnalistlərə məxsusdur. Əbəs yerə deməyiblər: “Kim informasiyanı idarə edirsə, o dünyaya ağalıq edir”. Bu dünya ilə ehtiyatlı olmaq lazımdır, çünki o, hər kəsdən ümid, işıq və yaxşılığa çağırış gözləyir.

Televiziya kanallarının konsepsiyası, strateji hədəfləri, efir siyasəti ictimai maraqlarla uzlaşdırılmalı, cəmiyyətimizin saflaşması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə töhvə verməlidir.

Biz uşaq verilişlərini üç cəhətdən təsnif etdik: məzmunluluq, dövrilik və auditoriyanın məqsədliliyi. Hansı ki, bütün bunlar bizə Azərbaycan teleməkanında uşaq verilişlərinin kifayət qədər tam şəklini yaratmağa icazə verdi.

Telekanalların ictimai cavabdehliklə əlaqədar çatışmazlıqları ilə bağlı əsas problemlərin bir neçəsini təyin etdik və uşaq televerilişlərinin yenidən qurulması və inkişafı ilə bağlı bir neçə yol da təklif etdik.

## Ədəbiyyat siyahısı

*Azərbaycan dilində*


1. Dadaşov A., KİV-də relkam və marketinq problemləri. –B., 2001.
2. Rüstəmov A., "Jurnalistika" – B., 2005.
3. AR Konstitusiyası – B., 2002.
4. Məmmədli C. Jurnalistikaya giriş .– B., 2001.
5. Məmmədli C., Müasir jurnalistika. – B., 2003.
6. Məmmədli C., Jurnalistikanın müasir inkişaf meylləri – B., 2006.
7. Mazanlı İ., Söz azadlığı və informasiya təhlükəsizliyi: Milli və beynəlxalq təminat. – B., 2005.
8. Hüseynov İ., Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. B. – 2002.
9. Jurnalistika və hüquq. – B., 2002.
10. KİV haqqında AR Qanunu. – B., 2000.
11. TV və Radio yayımı haqqında AR Qanunu. – B., 2002.
12. Uşaq Hüquqları haqqında Konvensiya.
13. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu.


*Rus dilində*


1. Ворошилов В.В. Журналистика – СПв. 2001
2. Массовая информация и коммуникация в современном мире – М. 1981
3. Ожерельева А. Обзор: Детское телевидение в России и США / Интернет-журнал ТВ- дайджест (www.tv-digest.ru) от 22.10.2009
4. Современная журналистика – Киев. 1999
5. Юровский А.Я. Место телевидение в системе средств массовой коммуникации / Телевизионная журналистика – М. Высшая школа, 2002.
6. Телевизионная журналистика. / Под ред. Г. В. Кузнецова, Цвика В. Л., Юровского А.Я.. – М.: Высшая школа, 2002.
7. Когатько А.Г. Социальная ответственность детского телевидения. Развивающее телевидение для детей. // Официальный сайт депутата Гос. Думы Крутова А.Н. (www.kroutov.ru), 2005
8. Егоров В.В. Телевидение: Страницы истории. – М.: Аспект-Пресс, 2004
9. Радио и телевидение/Энциклопедия Кругосвет на DVD. – М: Медиа Хауз, 2008
10. Muzı veka. –Moskva. İskusstvo, 1978.

*İnternet saytlari*

1. www.bibigon.ru
2. www.google.az
3. www.lenizdat.ru
4. www.yandex.ru